*ELDAR ELLİ*

# ÖLDÜR NİFRƏTİMİ ÖZÜMDƏN QABAQ

Nərgiz NƏŞRİYYATI

BAKI-2015

Redaktor: ***Hidayət Musabəyli***

***Eldar Elli*** "Öldür nifrətimi özümdən qabaq". Bakı, ***"Nərgiz"*** nəşriyyatı, 2015, - 192 səh.

$$E\frac{742000000}{079}856-2015$$

©

«Нəргиз», 2015

## MƏN ŞAİR DEYİLƏM

Mənu ucaltmadı zaman, vaxt, atam,
Ya bir qızıl alma, ya bir bəxt, atam.
Üzümə tutmağa sözüm yox, atam,
Mən şair deyiləm, atam, qardaşım.

Hansı möcüzədir, ya sirr torpağım!
Ayağım altında əsir torpağım…
Yadlar əlindədir əsir torpağım,
Mən şair deyiləm, atam, qardaşım.

Adi söz deməyə cəsarətim yox,
Bəlkə də günahım, qəbahətim yox.
Böyük ürəyim yox, məhəbbətim yox,
Mən şair deyiləm, atam, qardaşım.

Ürəyim alışdı, közüm ağladı,
Ruhum ağlamadı, gözüm ağladı.
Özümnən aşağı sözüm ağladı,
Mən şair deyiləm, atam, qardaşım.

Belə öldürməyin gəlin Ellini,
Hələ doğulmamış bilin Ellini.
Qara siyahidan silin Ellini,
Mən şair deyiləm, atam, qardaşım,-
Mən şair deyiləm, atam, qardaşım.

## SÖZÜ BÖYÜTMƏYİM VAR

Bu axşam könlümə bir şeir düşüb,
Yenə misra-misra boy atmağım var.
Dünyadan xəbərsiz şirin yuxudan,
Sözü sevə-sevə oyatmağım var.

Yaxını özgədi, yadı özgədi,
Bu dəli sevdanın adı özgədi.
Küsüb-barışmağın dadı özgədi,
Yenə getməyim var, qayıtmağım var.

Yenə sərhədləri keçib gəlmişəm,
Özgə planetdən uçub gəlmişəm.
Üfürə-üfürə içib gəlmişəm,
Sözü bişirməyim, soyutmağım var.

Xəlbirim göylərdən dönənnən qalıb,
Bilmirəm, o hansı dönəmnən qalıb?
Köhnə kirkirəmiz nənəmnən qalıb,
Sözü ələməyim, üyütməyim var.

Ay Elli, könlümü köz eyləmişəm,
Yandırıb bir qara göz eyləmişəm.
Gözdən söz çıxarıb söz eyləmişəm,
Hələ sevə-sevə böyütməyim var.

## MƏNİM AĞ GÖYƏRÇİNİM

*Dərs zamanı pəncərəmə qonan göyərçin uçub-getmədi. O, bəlkə də, əzizlərimdən birinin ruhu idi...*

Getmişdin qayıtmaq çətinmiş, demə,
Sevənlər cəsurmuş, mətinmiş, demə.
Dünyamız bir gözəl qadınmış, demə,
Mənim Ağ Mələyim – ağ göyərçinim...

Röyasan, aşkarsan, yuxusan, nəsən?
Dost kimi gəlmisən, yağısan, nəsən?
Bəlkə də Kərəmin ahısan, nəsən?
Mənim Ağ Mələyim – ağ göyərçinim...

Haçandı bir boynu buruq nəğməsən!..
Bəlkə də, yasaqsan, qoruq nəğməsən,
Pəncərəm önündə qırıq nəğməsən,
Mənim Ağ Mələyim – ağ göyərçinim...

Göyərçin donunda dönüb gəlmisən,
Bəlkə də, göylərdən enib gəlmisən,
Bir eşqin oduna yanıb gəlmisən,
Mənim Ağ Mələyim – ağ göyərçinim...

Şəkər dillərinin balını gördüm,
Göyərçin üstündə xalını gördüm.
Lalə yanağının alını gördüm,
Mənim Ağ Mələyim – ağ göyərçinim...

Qəlbimin odunu söndürə bildin,
Sən məni göylərdən endirə bildin.
Yenidən ruhumu dindirə bildin,
Mənim Ağ Mələyim – ağ göyərçinim...

“Ellinin xətrinə”,-deyib gəlmisən,
Bir eşqi əyninə geyib gəlmisən,
Başını qarşımda əyib gəlmisən,
Mənim Ağ Mələyim – ağ göyərçinim...



## LEYLAM

Ruhunu özümlə çəkib aparsam,
Bir dəli sevdaya büküb aparsam,
Dəlisov çaylara töküb aparsam,
Bir də sevərmisən sən məni, Leylam?

İtirib özümdə özümü gəzsəm,
Ötən illərimi, dözümü gəzsəm,
Küləklər aparan sözümü gəzsəm,
Bir də sevərmisən sən məni, Leylam?

Bənövşə boynunu əyib qayıtsan,
Sevda köynəyini geyib qayıtsan,
Harayım daşlara dəyib qayıtsa,
Bir də sevərmisən sən məni, Leylam?

Deyirlər, Ellinin qəmi yox, gülüm,
Vallah, kimsəsi yox, kimi yox, gülüm.
Sönüb bəxt ulduzu, şəmi yox, gülüm,
Bir də sevərmisən sən məni, Leylam?

## MƏNİ YESENİN YERİNƏ BASMA

Məni Yeseninin yerinə basma,
Yesenin şairdi, mən nəyəm, gözəl?
Şairlər saf olur, təmiz doğulur,
Mən tamam başqayam, özgəyəm, gözəl.

Alıbsan əlimnən qəmi yüz dəfə,
Vurubsan sıfıra cəmi yüz dəfə,
Vallah, sındırıbsan məni yüz dəfə,
Yüz yerə bölünən güzgüyəm, gözəl.

Yalannan yazıram qissələrimi,
Atıram odlara qüssələrimi,
Çör-çöpdən yığıblar hissələrimi,
Cizgi filimiyəm, cizgiyəm, gözəl.

Kələyə düşmüşəm, kələkdən keçib,
Təndirə düşmüşəm, ələkdən keçib.
Tanrıdan, bəndədən, fələkdən keçib,
Gərək sərhəddimi gözdüyəm, gözəl.

Dəmir əsa alam, ya çarıx geyəm,
Dönəm pərvanəyə, ya çırax geyəm,
Qızıldan ya qələm, ya varax geyəm,
Gərəkdi, əynimə söz geyəm, gözəl,

Dayana bilmirəm söz qabağında,
Yanıb külə döndüm köz qabığında,
Nəyim var hamısı göz qabağında,
Gərəkdi, hər şeyi gizdiyəm, gözəl.

Onsuz da heç nəyə qadir Ellini
Bağışla, Tanrıya xatir Ellini
Gərəkdi, bir dəfə şair Ellini
Salam ayaq altda, dizdiyəm, gözəl.



## AĞLAMA

*Şəhid anasına*

Qurut göz yaşını, sil göz yaşını,
Belə yana-yana ağlama, ana.
Sən oğul vermisən Azərbaycana,
Ağlama, sinəmi dağlama, ana.

Göylərdə hönkürən buludlar mənəm,
Qəzəbim dağların selinnən gəlir.
Əsl qəhrəmanlar, əsl igidlər,
Əsl kişilərin belinnən gəlir.

Mən şəhid deyiləm, belə ağlama,
Zirvədə qartalın gözüyəm, ana.
Atamız Babəkin ruhu deyiləm,
Qayıdıb gəlmişəm, özüyəm, ana.

Ruhum Vətənimin göylərindədir,
Mən ki, ölməmişəm, ölən deyiləm.
Təbriz də mənimdir, Bakı da mənim,
Mən ki, bölməmişəm, bölən deyiləm.

Şəhidlik alnıma yazılıb, ana,
Atam da şəhiddir, babam da şəhid.
Təkcə şəhid olan mən deyiləm ki,
Qarabağ adlanan obam da şəhid.

Ağlama, ay ana, belə ağlama,
Bir gün qayıdaram, gələrəm yenə.
Min canım olsa da, Vətənə qurban,
Yenə döyüşərəm, ölərəm yenə...



## BƏS NECƏ YATIRSAN

Bilmirəm, bu şəhər necə yaşıyır,
Niyə bu şəhərin gecəsi yoxdu?
Göyləri dəlirlər göydələnləri,
Rahatca keçməyə küçəsi yoxdu.

Həlimlik elə bil göyə çəkilib,
Ütülü insanlar codlaşıbdılar,
Sarılıq qonubdu al yanaqlara,
Elə bil gözəllər yodlaşıbdır.

Süni mayalanır gülüşlər indi,
Təbəssüm dodaqda donan kəpənək.
Baxışlar ürəyə yol tapa bilmir,
Soyuq qayalara qonan kəpənək.

Bu soyuqqanlılar, soyuqlaşdılar,
Odu içimizdən oğurlayıblar,
Ya südü, qatığı, kənd çörəyini,
Ya da insanlığı yadırğayıblar.

Ciliddən-cilidə düşür adamlar,
Havada əriyən yalanlar kimi,
Ürəklər boşluğa dəyib-qayıdır,
Başı kəsik olan dalanlar kimi.

Üzünü döndərib bu dünya mənnən,
Salam alanım yox, verən tapılmır.
Niyə alçalırıq öz içimizdə,
Hamı gözübağlı, görən tapılmır?

Yatmış vicdanları bir oyadan yox,
Min ildi yuxuya veriblər səni.
İlahi, bəlkə də, bir az da çoxdur,
Bizim küçələrdə görüblər səni...

İlahi, insanlar necə yaddılar,
Necə yaşayırlar, necə, İlahi?!
Sən də öz yerində xumarlanırsan,
Bəs necə yatırsan gecə, İlahi?!..



## DÖYÜR

Döymə ürəyimin qapılarını,
Onsuz da qapımı küləklər döyür.
Allah bəndəsiyəm, Təkevliyəm mən,
Gecələr qapımı mələklər döyür.

Demə şəkərmişəm, demə, balamışam,
Dilim lala dönüb, demə, lalmışam.
Göylərin üzündə tənha qalmışam,
Durna qatarında lələklər döyür.

Dəryada gəmimiz batıb haçandır,
Oyanmır bəxtimiz, yatıb haçandır.
Məni çıxarına qatıb haçandır,
Dəyirman üyüdür, ələklər döyür.

İsidir dünyanı daşın nəfəsi,
İsti yuvasında quşun nəfəsi.
Çəkilir torpaqdan qışın nəfəsi,
Gecikən baharı çiçəklər döyür.

Bir naşı yolçunun yolu olmuşam,
Dilinin əzbəri, dili olmuşam.
Bir yannan ağlımın qulu olmuşam,
Bir yannan Ellini fələklər döyür.

## QİBTƏ

*Bir gözəl "sənə qibtə edirəm"- dedi*

Keçir ürəyimnən bir dəli sevda,
Hələ doğulmamış ölməli sevda.
Ümidsiz bir sevda, gülməli sevda...
Nəyim var, sən mənə qibtə edirsən?..

Şeirsən, nəğməsən, qəzəlsən, gülüm,
Bütün sevgilərdən əzəlsən, gülüm.
Riyasız, boyasız gözəlsən, gülüm,
Nəyim var, sən mənə qibtə edirsən?..

Min sözüm bir qara gözlərə dəyməz,
Yüz sığal çəkdiyim sözlərə dəyməz.
Ruhuma saldığın izlərə dəyməz,
Nəyim var, sən mənə qibtə edirsən?..

Hansı planetdən köçüb gəlmisən?
İynənin ucunnan keçib gəlmisən,
Bəlkə də, cənnətdən uçub gəlmisən?
Nəyim var, sən mənə qibtə edirsən?..

Ay Elli, bir borcum, yüz sələmim var,
Yüz dərdim, yüz qəmim, yüz ələmim var.
Bir sevən ürəyim, bir qələmim var,
Nəyim var, sən mənə qibtə edirsən?..
Nəyim var, sən mənə qibtə edirsən?..

## ÇIXIR

Kiminin evində Mələk böyüyür,
Kiminin evinnən ilannar çıxır.
Oddan kül doğulur, kül oda dönür,
Hər daşın altınnan yalannar çıxır.

Daş yeyib, baş yeyib, gəvən qoparan,
Dünyadan bir qarış kəfən qoparan,
Yalannan hay salıb şivən qoparan,
Qarşıma saçını yolannar çıxır.

Bəsirət ağlı var, gözü yox, atam,
Ruhumun odu var, közü yox, atam.
Tanrının adı var, özü yox, atam,
Qarşıma qəsdimə dolannar çıxır.

Yüz dəfə işlətdi günah bəndəsi,
Allahdan qorxmadı Allah bəndəsi.
Qarşıma çıxmadı Allah bəndəsi,
Gözümün odunu alannar çıxır.

Dağ düşüb dumanın, çənin bəxtinə,
Sevənlər yazılıb qəmin bəxtinə,
Ay Elli, neyləyim sənin bəxtinə,
Ağıldan geridə qalannar çıxır.

## “BƏH-BƏH”, DEYİRSƏN

Gör haçandır, ocaq çatıb içimdə,
Gennən durub necə “bəh-bəh” deyirsən.
Gündüzləri yandırırsan, yaxırsan,
Ay insafsız gecə “bəh-bəh” deyirsən...

Yol azmışam, hara çəkir çən məni,
Əvvəl-axır öldürəcək qəm məni,
Nə sayırsan heç bilmirəm sən məni?
Bilə-bilə heçə “bəh-bəh” deyirsən...

Bu karvanda üçü gedir Lələsiz,
Günahları, suçu gedir Lələsiz,
Xan Kərəmin köçü gedir Lələsiz,
Gülə-gülə köçə “bəh-bəh” deyirsən...

Sən Ellini qılığına salmısan,
Sırğa kimi qulağına salmısan.
Kələyinə, dolağına salmısan,
Öc alırsan, öcə “bəh-bəh” deyirsən...

## BƏLKƏ DƏ

*Deyirlər qiyamət günü yaxınlaşır*

Min ildir bu bəşər şirin yuxuda,
Bəxtimiz əbədi yatıb bəlkə də.
Sahibsiz qalıbdı bu Yer kürəsi,
Tanrılar iblisə satıb, bəlkə də...

Bəlkə, bir oyundu, siyasət gəlir,
Bir sevgi, bir dözüm, dəyanət gəlir,
Döyür qapıları "Qiyamət gəlir",
Tanrı yuxusunu qatıb bəlkə də...

Biçilib Adəmin zəmisi yoxdu,
Qardaşı, bacısı, əmisi yoxdu.
Nuhun tufanı var, gəmisi yoxdu,
Hardasa ilişib, batıb bəlkə də...

Bir ümid göylərə, bir dözüm qala,
Bir gözüm yol çəkə, bir gözüm qala,
Bir koma tikmədim, bir izim qala,
Dünyanın axırı çatıb bəlkə də...

Min ildi qurumur acı göz yaşı,
Ay Elli, qarışıb Tanrının başı,
Çıxara bilmirik, atılan daşı,
Bir dəli quyaya artıb bəlkə də...

***21 dekabr 2012***

## A QAR ÇİÇƏYİM

Cığırları açа-açа gəlmisən,
Dünyamıza uça-uça gəlmisən.
Muştuluğa qaça-qaça gəlmisən,
Mənim Ağ çiçəyim, a qar çiçəyim...

Sazaq döyüb, dolu döyüb, qəm yemə,
Sağı vurub, solu döyüb, qəm yemə,
Bizə gələn yolu döyüb, qəm yemə,
Mənim Ağ çiçəyim, a qar çiçəyim...

Gün alladıb, ayaqların donubmu?
Şirin, şəkər dodaqların donubmu?
Çiçək açan yanaqların donubmu,
Mənim Ağ çiçəyim, a qar çiçəyim...

Günəş kimi od ələyim, çaxım qoy,
Dünya boyda ürəyinə axım qoy,
Sevgi dolu gözlərinə baxım qoy,
Mənim Ağ çiçəyim, a qar çiçəyim...

Heç bilmədim göyərinmi, yerinsən,
Baldan şirin xəyalımnan şirinsən.
Gəl Ellinin ürəyinə bürün sən,
Mənim Ağ çiçəyim, a qar çiçəyim...
Mənim Ağ çiçəyim, a qar çiçəyim...

## QOVA-QOVA NAMƏRD ETDİM DƏRDİMİ

Bir daş altda, bir daş üstə qoymuşam,
Ürəyimdə boğa-boğa dərdimi.
Zaman-zaman bir namərdə çevirdim,
Namərd etdim qova-qova dərdimi.

Daş ünvanım, daş mənzilim, daş adım,
Bir ömürdü mən də belə yaşadım.
Tutum başım, yoxsa göyə daş atım?
Paylamışam sola-sağa dərdimi.

Atasızmı, anasızmı böyüdü,
Heç bilmədim kimnən aldı öyüdü?
Ömür keçdi, tanımadım, nəyidi,
Üstümüzə yağa-yağa dərdimi.

Bütöv iydim, para iydim, tam iydim,
Barıt dolu, sirkə dolu cam iydim,
Uşaq iydim, cavan iydim, xam iydim,
Qurban etdim sözə-sova dərdimi.

O göylərin daş qapısı bağlımı?
Daş yuxular qaralımı, ağlımı?
Əldən alıb, Elli, qalan ağlımı,
Namərd etdim qova-qoba dərdimi.

## QƏM

Bu sevgini günah yazma adıma,
Bir çiçəkdi, yarı kədər, yarı qəm.
Bal kimidi, ruhumuza yayılır,
Aman Allah, çiçəyi qəm, barı qəm...

Heç bilmədim, astarı nə, üstü nə?
Nə zamansa dayanacaq qəsdimə.
Qar yağacaq bu çiçəyin üstünə,
Yağan yağışı, döyən dolu, qarı qəm...

Qara gözlər həsrət ilə yol çəkər,
Yaxın gələr, nə də mənnən əl çəkər.
Baxışları ürəyimnən bal çəkər,
Balı qəmdi, çiçək qəmdi, arı qəm...

Xəyalımda ana torpaq qalıbdı,
Elli, tətik, bir də barmaq qalıbdı.
Bir budaqda iki yarpaq qalıbdı,
Ağ ayrılıq, sarı nifrət, sarı qəm...

## NİYƏ DOĞDUN

*Mənsiz də dünyanın işi keçərmiş.*
*Xəyyan*

Barışmadım bu dünyanın özüylə,
Ağlayıram ürəyimin gözüylə...
Gəlmişidim bir taleyin sözüylə,
Niyə doğdun, niyə məni, ay ana?..

Çoxlarının kiprikləri nəmiymiş,
Ağlım iti, fikirlərim cəmiymiş.
Ömür yolum başdan-başa qəmiymiş,
Niyə doğdun, niyə məni, ay ana?..

Dünya mənsiz boş qalardı, bəlkə də,
Yatmış idim, oyat məni, silkələ.
Kəndir tapıb boğazıma ilgələ,
Niyə doğdun, niyə məni, ay ana?..

Kür taleyim axarına yatmadı,
Haramını halalıma qatmadım.
Çoxlarının sözü mənə çatmadı,
Niyə doğdun, niyə məni, ay ana?..

Ağ qatığa "qarasanmı"-deyimmi?
Vüqarımı qarşısında əyimmi?
"Dünya haqqa baş əymədi"-deyimmi?
Niyə doğdun, niyə məni, ay ana?..

Bal gəzirəm, pətəyim yox, arım yox,
Zaman-zaman çiçək açdım, barım yox.
Ağlım iti, qolum güclü, karım yox,
Niyə doğdun, niyə məni, ay ana?..

Elli, ömür bircə qırıq ney imiş,
Heç bilmədim, yuxu imiş, nəyimiş.
Gəlməsəydim, bəlkə, daha “yey” imiş,
Niyə doğdun, niyə məni, ay ana?..
Niyə doğdun, niyə məni, ay ana?..



## SƏN ALLAH, YALANNAN MƏNƏ: "CAN",-DEMƏ

Yalanlar dilimin ucunda bitməz,
Sən Allah, yalannan mənə: "can"-demə.
Çoxunun nəfəsi yalannan gəlir,
Buna "sevgi"-demə, "həyəcan"-demə.

Görünmə gözümə mələklər kimi,
Oynatma ruhumu küləklər kimi.
Sevən ürəyimi çiçəklər kimi
"Bir məzar üstünə qoyacam",-demə.

Dünyanı telinə hörə bilmədim,
Bircə baxışına verə bilmədim.
Mən səni doyunca görə bilmədim,
"Qara gözlərini oyacam",-demə.

Sən dəli Kürümün öz axarıydın,
İçimdən sürülən söz axarıydın.
Sən ki, sirr quyusu, sirr dağarıydın,
"Sirrini dünyaya yayacam",-demə.

Həsrət muncuğunu taxıb boynuna,
Yükləmə bu qədər baxıb boynuma.
Yenə günahları yıxıb boynuma,
"Ay Elli, ovcuna sayacam",-demə.

## ELLİ HƏLƏ UŞAQ AĞLIN YAŞIYIR

Dəli könlüm bu şəhərdə çən gəzir,
Zaman sənnən, dünya mənnən gen gəzir.
Sərçələr də saçlarımda dən gəzir,
Ha çırpıram, tökülmür ki, tökülmür...

Tale kürdü, axıb gedən çay kimi,
Gahdan çıxan, gahdan batan ay kimi,
Ümidləri sapa düzdüm pay kimi,
Könlüm evi tikilmir ki, tikilmir...

Dönüb tərsə axan deyil bu sevda,
Ta yandırıb-yaxan deyil bu sevda,
Sinəmizə sığan deyil bu sevda,
Neyləyim ki, kiçilmir ki, kiçilmir...

Zirvələri buludlardan nəm çəkir,
İllər şələ, ömür karvan, qəm çəkir,
Tərəzilər min illərdi kəm çəkir,
Əkdiyimiz biçilmir ki, biçilmir...

Yaz bitirir, payız yığır, qış yuyur,
Qəm-kədəri yanaqlardan yaş yuyur,
Elli hələ uşaq ağlın yaşıyır,
Neyləyim ki, yekəlmir ki, yekəlmir...

## QURUT GÖZ YAŞINI

Qurut gözlərinin yaşını, gülüm,
Qurut, o kimsəyə gərək deyilsə.
Sevdirə bilmirsə, sevə bilmirsə,
Çıxar, sinən altda ürək deyilsə.

Öldürmək asandır, yaşatmaq çətin,
Bacar, yaşatmağı öyrən bir az da,
Daşqalaq eyləmə sevdiklərini,
Hara daş atmağı öyrən bir az da.

Bilmirəm, doğmadı, ögeydi, yaddı,
Səsin cingildəyir qulaqlarımda.
Əsmər yanağında çiçəklər açmır,
Lalələr soluxub yanaqlarında.

Gör necə soyuqmuş təbəssümlərin,
İsitmir ruhumu gör neçə vaxtdı.
Kimsəsiz otaqda, zülmət otaqda,
Divarlar dil açır bu gecə vaxtı.

Elə bil yoxuymuş olub-keçənlər,
Vallah, gəlməmişik biz bu dünyaya.
Füzuli yoxuymuş, Məcnun yoxuymuş,
Heç gərək deyilmiş söz bu dünyaya.

Ovuda bilmədi sevən könlümü,
Tanrıdan nişanə qalan söz, gülüm.
Başına fırlanan şahlıq quşları,
Bir də qonmayacaq, qonmaz, üzgünüm.

Qurut gözlərinin yaşını, gülüm,
Qurut, o kimsəyə gərək deyilsə.
Sevdirə bilmirsə, sevə bilmirsə,
Çıxar, sinən altda ürək deyilsə.



## QAR YAĞIR

Bayırda qar yağır...
Yenə at oynadır boran küçədə,
Yenə başımıza qar ələyir qış.
Neyləsin, heç yerə yol tapa bilmir,
Yenə küçələrdə gecələyir qış.
Keçir içimizdən dəli gizilti,
Kimsəsiz, sahibsiz quşlar üşüyür.
Meşədə ağaclar əli qoynunda,
Bulaqlar üşüyür,
                    daşlar üşüyür.
Təkcə üşüməyən
                    bizik bəlkə də,
Günəş gülümsəyir başımın üstə,
Bir bahar doğulur otağımızda;
          Ömrümün, günümün,
                    yaşımın üstə.
Çiçəklər doğulur içimizdəcə,
O sənsən, o mənəm,
          bir də ruhumuz,
Bir çevrə qapanır üçümüzdəcə...
Bayırda qar yağır...
Ürəyimizdə
             dünya çiçək açıb,
                    ətirlənibdi.
Bəlkə də, bu əmr,
             fərman, sərəncam
bir cüt qara gözlə

möhürlənibdi...
Bayırda qar yağır...
xəbərimiz yox,
Zaman öz hökmünü
bitirib indi.
Döyür gözlərini saatlar belə
Ayları, illəri
itirib indi....



## ON BEŞ İL

Çaya susuz gedib, susuz gəlmişəm,
Kim belə yaşayıb görən on beş il?
Bəlkə də, düşünür, günahı yoxdu,
Ağ yuyub qaralar sərən on beş il.

Qılıncı qınına qoymaq bilmədi,
Verdiyi qəmləri saymaq bilmədi,
Usanmaq bilmədi, doymaq bilmədi,
Hər dərdi, qüssəni verən on beş il.

Əllərim üzüldü, köçə çatmadım,
Dərdləri çəkməyə gecə çatmadı,
İki il kül oldu, üçə çatmadı,
Yansa nə olardı Kərəm on beş il.

Sellər aparıbdı arxı, neyləsin?
Dəyirman işində, çarxı neyləsin?
Siz deyin, ay Elli, axı neyləsin,
Dərd əkib, qəm biçib dərən on beş il.

## BAX

Dünya boyda bir sevgi var içimdə,
Yana-yana kül olmuşam, külə bax.
Arısı yox, neştər vura, bal çəkə,
Boynubükük bənövşəyə, gülə bax.

Sellər, sullar şaqqıldayıb dərədə,
Tapmır tayın qaqqıldayan fərə də.
Zalım ovçu nişan qoyub bərədə,,
Dağ başında tənha duran kələ bax.

Möcüzəmi, yoxsa sirmi, bilmirəm,
İldırımlar qoca şirmi, bilmirəm?
Zirvələri bir əsirmi, bilmirəm?
Dövrə vurur qartalları hələ, bax.

Cığır gedir lal qayanın üstünə,
Pətək süzür bal, qayanın üstünə,
Kəklik qonub sal qayanın üstünə,
Xınalanan ayağa bax, ələ bax.

Zirvələri buludlardan nəm çəkir,
Zaman-zaman dərələrdən çən çəkir.
Gör haçandır Elli yaman qəm çəkir,
Ay çiçəyim, bir göz götür belə bax.

## DƏLİ

İçimdə bir dəli qar havası var,
Yatıb axarına, yatan Kür dəli.
Haçandı illərin sirr dağarıyam,
Gün düşmür bəxtimə, o da bir dəli.

Yel olub yanımdan ötməyə dəyməz,
Yel otu deyiləm, bitməyə dəyməz,
Tanrıya bəndəlik etməyə dəyməz,
O da bəxtim kimi, o da kür, dəli.

Yaşadım, ölmədim Sibir yüz dəfə,
Ya apar ruhumu, gətir yüz dəfə.
Məni götürmədi qəbir yüz dəfə,
Əzrayıl dəlidi, ya qəbir dəli.

Bezmişəm çoxunun buz nəfəsinnən,
Soyuq ədasınnan, buz həvəsinnən,
Elli, bir gözəlin ayaq səsinnən,
Bilməm, göy dəlidi, yoxsa yer dəli.

## QORXURAM

Bizi alan selə baxma,
Yana-yana belə baxma.
Qaragözlüm, elə baxma,
Sevməyə qorxmuram səni.

Təzələmə boyat eşqi,
“Quran” eşqi, ayət eşqi.
Gözlərində həyat eşqi,
Sevməyə qorxmuram səni.

Bir çiçəksən, gülüm gözəl,
Şəkər sözün, dilin gözəl,
Ayın, günün, ilin gözəl,
Sevməyə qorxmuram səni.

Dünyamızı qala billəm,
Dərdlərini ala billəm,
Yarı yolda qala billəm,
Sevməyə qorxmuram səni.

Elli bəylərdən ucadı,
Ağlı səylərdən ucadı,
Sevgi göylərdən ucadı,
Sevməyə qorxmuram səni.

## QUM ADAM

Sözü yoxdu, özü yoxdu, izi yox,
Qum saatdı, qum heykəldi, qum adam.
Hansı səmtə istiyirsən, əyilir,
Mumiyaymış, mum kimiymiş, mum adam.

Bir sifəti, bir geyimi, donu yox,
Qeyrəti yox, namusu yox, namı yox.
Nəfəs yoxdu, canı yoxmuş, qanı yox,
Niyə gəlib bu dünyaya bu adam.

Arzusu nə, istəyi nə bilinməz,
Başı nədi, ürəyi nədi bilinməz.
Vicdanının ləkələri silinməz,
Xəzərə sal, istəyirsən, yu adam.

Gör haçandı sahibsizdi papağı,
Gözü kordu, tutulubdu qulağı.
Xatırladır arpa yeyən ulağı,
Qanı buzdu, canı buzdu, su adam.

Ağlamağı, gülməyi də bacarmaz,
Göz yaşını silməyi də bacarmaz.
Adam kimi ölməyi də bacarmaz,
Elli, niyə doğulubdu bu adam?..

## SƏNİ TAPMAĞIM NƏ, İTİRMƏYİM NƏ

Dünyaya tez gəlib nə qazanmışam,
Geciksəm, görəsən, itirməyim nə?..
Mənə nə zamandı qəm gətirirsən,
Bilmirəm, içimdə bitirməyim nə?..

Gülün budağında yarpaq olmuşam,
İgid doğulmuşam, qorxaq olmuşam,
Torpaqdan doğulub, torpaq olmuşam,
Əyilib bir ovuc ötürməyim nə?..

Yüz yol səcdə qıldım, yüz yol əyildim,
Nə "İncil", nə "Tovrat", "Quran" deyildin.
Səni Tanrılara verən deyildim,
İndi yola salıb ötürməyim nə?..

İçimdə lal olan lala borcluyam,
Lalə yanağında xala borcluyam.
Köhləni yorulan yola borcluyam,
Bu mənzil başına yetirməyim nə?..

Dünyanı fırladıb nərd bilən gözəl,
Ay məni sınayıb mərd bilən gözəl,
Mənsiz yaşamağı dərd bilən gözəl,
Ellini tapmağın, itirməyin nə?..

## İKİ ÖMÜR

İkili yaşamaq istəmirəm mən,
Onsuz da bir ömür yetərim deyil.
Nə olar, yenidən gəlsəm dünyaya,
Birini yaşamaq qədərim deyil.

Bir ömür nədir ki, əlli il, yüz il,
Ayağa çəkirəm, başımı görmür.
Təkcə özüm üçün yaşasam belə,
Bu ömür əllicə yaşımı görmür.

Mənnən ömür payı uman nə çoxdu,
Nə çoxdu ömrümə şərik olanlar.
Sevgi də, nifrət də ömür payımdı,
Nə çoxdu qanıma herik olanlar.

On beş il, otuz il, əlli il, yüz il,
Payladım ömrümə qalan olmadı.
Verdim, yaxşısına, pisinə verdim,
Yerində qalanı alan olmadı.

Hərə bir şey umur mənnən İlahi,
Mənimsə kimsədən umacağım yox.
Əllərim yananda, dilim yananda,
Üstünə gedənim, qaçacağım yox.

Ömür alma deyil, ikiyə böləm,
Vallah, istəsəm də, bölə bilmirəm.
Sən mənə bir ömür bağışlamısan,
Yaşaya bilmirəm, ölə bilərəm.

Məni sındırmısan, bəlkə, yüz dəfə,
İlahi, qayıdım, gəlim təzədən.
Bəlkə, insan kimi yaşadım onda,
İzin ver, doğulum, ölüm təzədən.

## BİR DƏ

Gülüşlə kədəri ovudan gözəl,
Açılmaz səhəri ovudan gözəl,
İçimdə qəhəri ovudan gözəl,
Öldür sevə-sevə sən məni bir də.

Onsuz da bu eşqin küçəsi yoxdu,
Özü bir, adı bir, hecası yoxdu,
Səhəri, axşamı, gecəsi yoxdu,
Öldür sevə-sevə sən məni bir də.

Bəlkə, ürəyinin daş harayıyam,
Kipriyin ucunda yaş harayıyam.
Həsrətin payızı, qış harayıyam,
Öldür sevə-sevə sən məni bir də.

Səbr edə bilmədin, səbirdən keçib,
Qədrimi bilmədin, qədirdən keçib,
Elli qıl körpüdən, qəbirdən keçib,
Öldür sevə-sevə sən məni bir də.
Öldür sevə-sevə sən məni bir də.

## YAMAN DARIXMIŞAM

Cücərmir bu eşqin ləki min ildi,
Saralıb gözümün kökü min ildi.
Düşmür bu həsrətin tükü min ildi,
Yaman darıxmışam səninçün, gülüm.

Bəlkə də, dünyanın üzü dönübdü,
Verdiyi vədləri, sözü dönübdü.
Qışı qayıdıbdı, yazı dönübdü,
Yaman darıxmışam səninçün, gülüm.

Tale qismətimsən, yoxsa payımsan?
Batan günəşimsən, doğan ayımsan?
Quruyan bulağım, axan çayımsan?
Yaman darıxmışam səninçün, gülüm.

Haqdan yanan çıraq sönəsi deyil,
Bu sevda göylərdən enəsi deyil,
Bir də qayıdası, dönəsi deyil,
Yaman darıxmışam səninçün, gülüm.

Ay Elli, dərdinnən ölən yoxuymuş,
Sevinci, kədəri bölən yoxuymuş,
Yollar qubarlanıb gələn yoxuymuş,
Yaman darıxmışam səninçün, gülüm.

## BİLMİRƏM

Ömür bir karvandı yol ayrıcında,
Xıxdıra bilmirəm, xıxa bilmirəm.
Neyləyim, dünyanın cazibəsinnən,
Ölüb-dirilirəm, çıxa bilmirəm.

Tanış cığırları çaşıb gedirəm,
Bütün sərhədləri aşıb gedirəm.
Bermud bucağına düşüb gedirəm,
Bir addım qırağa çıxa bilmirəm.

Arıtək gəzirəm pətəklərimi,
Yenicə açılan çiçəklərimi.
Buludtək çırmayıb ətəklərimi,
Neyləyim, ovcumda sıxa bilmirəm.

Sevda bir dənizmiş, suyum lillənib,
Bir qurtum qismətim, payım lillənib.
O, Zəmzəm suyuymuş, quyum lillənib,
Süzülə bilmirəm, axa bilmirəm.

Örtüb gözlərimi duman, çən, demə,
Dünyadan keçmişəm gecə mən, demə,
Ay Elli, oyunmuş bu da sən demə,
Ağlımın sözünə baxa bilmirəm.

## ZÜMRÜD QUŞUMSAN

Sən mənim zülmətdə Zümrüd quşumsan,
Çəkib lələyini yandıracağam,
Gəlib harayıma yetişə bilsən,
Bir dəli inadı sındıracağam.

Sürüyür ardınca xəyallar məni,
Aparır hayana, hara, bilmirəm.
Səni itirmişəm öz ürəyimdə,
Kimsədən arayıb sora bilmirəm.

Mən elə bilirdim göy adamısan,
Tanrı dərgahınnan enib gəlmisən.
Ayrılıb göylərin mələklərinnən,
Mənim taleyimə dönüb gəlmisən.

Xəzər yoxa çıxıb xəyallarımda,
Quruyub içimdə Araz da, Kür də.
Qovum yox ruhumu alışdırmağa,
Çətin qayıdaram mən sənə bir də.

Sən mənim zülmətdə Zümrüd quşumsan,
Çəkib lələyini yandıracağam,
Gəlib harayıma yetişə bilsən,
Bir dəli inadı sındıracağam...

## A DİLBƏR

Elə bax ki, gözlərimin içinə,
Bircə anda yanım, sönüm, a dilbər.
Kəbə nədir bu sevdanın yanında,
O Kəbədə daşa dönüm, a dilbər.

Öldür məni gülə-gülə içində,
Külə döndü bilə-bilə içində.
Ərit məni gilə-gilə içində,
Kipriyində yaşa dönüm, a dilbər.

Ara məni saçlarının dənində,
Sevənlərin gözlərinin qəmində,
Səslə məni o dağların çənində,
Uçum gəlim, quşa dönüm, a dilbər.

Zirvə məni yoxuşunda əritsin,
Çinar məni koğuşunda əritsin,
Qara gözlər baxışında əritsin,
Sən Ellini qışa döndər, a dilbər.

## SƏN ALLAH

A dünyamın a bəxtəvər gözəli,
Dil çıxarma belə mənə, sən Allah.
Heç bilmirəm Tanrı kimdi, mən kiməm?
Məni salma dərdə, qəmə, sən Allah.

Zaman-zaman ərimişəm içimdə,
Yanılmışam dönə-sönə seçimdə,
Tanrı yoxdu sən ölçüdə, biçimdə,
Dua eylə əqlikəmə, sən Allah.

Hər ünvanda payçısı var ömrümün,
Harayı var, hayçısı var ömrümün,
Zaman adlı qayçısı var ömrümün,
Elə demə, elə demə, sən Allah.

Halımıza yaxın yanır, yad yanır,
Elli, neçə ünvan yanır, ad yanır,
Sinəm altda gör haçandır od yanır,
Qüssə çəkib, kədər yemə, sən Allah.

## DƏYMƏ

Ürəyim sonuncu payız yarpağı,
Sən Allah, sonuncu yarpağa dəymə.
Onsuz da başımız göylərə çatmır,
Ayağım altında torpağa dəymə.

Qalmışam dünyanın qəm adasında,
Hər yandan dəlisov dalğalar döyür.
Uçulub dünyamız, yeri bilinmir,
Olmayan qapımı, "qarğalar"döyür.

Kəsilib naləsi qırıq neylərin,
Mizrab asta-asta tellərə dəymir.
Ürəyim haçandı qəm yuvasıdı,
Uçurur hər şeyi, illərə dəymir.

Hələ də budaqda sonuncu yarpaq,
Döyür hər tərəfdən payız yelləri.
Sovurur günləri havaya bir-bir,
Ömrün bəyaz qarı, bəyaz yelləri.

Ömür də borc imiş, yaşasaq belə,
Bizlərə quru ad, quru yaş qalar.
Sonuncu ümid də sonuncu yarpaq,
Düşsə, budaqlardan yeri boş qalar.

Ürəyim sonuncu payız yarpağı,
Sən Allah, sonuncu yarpağa dəymə.
Onsuz da başımız göylərə çatmır,
Ayağım altında torpağa dəymə.

## MÖHTACAM

Boğuluram yaltaqların selində,
Əlim çatmır, köpüyünə möhtacam.
Dəyirmanın boğazından sağ çıxan,
Sürtüyünə, ütüyünə möhtacam.

Arpa çayı aparıbdı yarımı,
Kimlər dərdi çiçəyimi, barımı?
Səpir sağa, səpir sola varımı,
Milyonçunun qəpiyinə möhtacam.

Quruyubdu bulaqlarım, göllərim,
Əsir düşüb obalarım, ellərim,
Yarpaq-yarpaq gül açmadı əllərim,
Pöhrə verən kötüyünə möhtacam.

İtirdiyim qazancımdan çoxuymuş,
Bu dünyada demə kimsəm yoxuymuş,
Səadətim bir yarımçıq yuxuymuş,
Zaman-zaman itiyinə möhtacam.

Çörəyimiz qara daşdan çıxıbdı,
Qara gözdən, qara qaşdan çıxıbdı,
Ruh bədəndən, ağıl başdan çıxıbdı,
Ataların dediyinə möhtacam.

Elli, çoxu yaddaşımdan silindi,
Kim kim imiş, kim nə imiş bilindi,
Sevdiklərim əl uzatmır min ildi,
O Tanrının ətəyinə möhtacam.

## ÖZÜNLƏ

Döyünmə sinəmdə, ürək, sən belə,
Ruhumu oxşama, çiçək, sən belə.
Döymə qapımızı külək, sən belə,
Məni mənnən alıb apar özünlə.

Gedim fəsillərin il qanadında,
Dəlisov çayların sel qanadında.
Kövrək xəyalların yel qanadında,
Məni mənnən alıb apar özünlə.

Tanrıyla bəndənin arası mənəm,
Sevən ürəyinin parası mənəm,
Qara gözlərinin qarası mənəm,
Məni mənnən alıb apar özünlə.

Qoymaram toz qona izlərin üstə,
Ruhumu oxşayan sözlərin üstə,
Ellini saxlasan gözlərin üstə,
Məni mənnən alıb apar özünlə...

## QOYMA

Bu sevgini gətirə-gətirə yığmışam,
Ürəyim, amandı, daşmağa qoyma.
Gəl məni bu qədər dillərə salma,
Hər şeyin həddini aşmağa qoyma.

Min il sevə-sevə ölə bilərsən,
Dərdin öhdəsinnən gələ bilərsən.
Fürsət ovcundadı elə bilərsən,
Qanadlı bir quşdu, uçmağa qoyma.

Dağıtma kollara darılarını,
Uçurma ağlımın barılarını,
Bağla ürəyimin qapılarını,
Hər nadan üzünə açmağa qoyma.

Dərələr dəryadı, güneylər dəniz,
Qorxum yox bizlərə de neylər dəniz,
Xəyallar yelkənim, o göylər dəniz,
Gecələr yuxumu qaçmağa qoyma.

Ay Elli, yaş gəlir yaşımın üstə,
Min il zəhmət çəkdim naşının üstə,
Bir işıq doğulub başımın üstə,
Yersiz günəş olub saçıma qoyma.

## YARIDA QALIB

Müqəddəs ələməm, ələmim qırıq,
Borcum xirtdəyəcən, sələmim qırıq.
Bir qələm əhliyəm, qələmim qırıq,
Yazım yarıda qalıb...

Taleyim qırılıb Laçında, atam,
Ellərin sonuncu köçündə, atam,
Tük bitib dilimin ucunda, atam,
Sözüm yarıda qalıb...

Özümü özümlə vuruşdurublar,
Ağlımı yüz dəfə qarışdırıblar,
Məni taleyimlə barışdırıblar,
Dözüm yarıda qalıb...

Xəmir yeyənləri fağır sanmışam,
Sahibi-Zamanı axır sanmışam,
Dəlisov çayları cığır sanmışam,
İzim yarıda qalıb...

Ay Elli, atdığım dəyməz hədəfə,
Ölən ümidlərim düzülər səfə,
Ölüb dirilirəm gündə yüz dəfə,
Bezim yollarda qalıb...

## YAD OLMUSAN

Qaçma mənnən, qaçma, gülüm,
Axa-axa yad olmusan.
Qanlı kimi baxma belə,
Baxa-baxa yad olmusan.

Köçüb dünyam, şoran qalıb,
Könlüm evi viran qalıb.
Dağ dəyməmiş haram qalıb,
Yaxa-yaxa yad olmusan.

Salma məni işə hər gün,
Göydən alma düşə hər gün,
Köz üstündə şişə hər gün,
Taxa-taxa yad olmusan.

Elli yatır daşın üstə,
Bir cüt gözün, qaşın üstə.
Qana dönüb başım üstə,
Yağa-yağa yad olmusan.

## BÜLBÜL

Budur gəldi bahar fəsli,
Yaz gəlibdi, yaz, ay bülbül.
Bulanıbdı axan çaylar,
Az qalıbdı, az, ay bülbül.

Qol götürən əllərə bax,
Dəli-dolu sellərə bax,
Dön utancaq güllərə bax,
Bir göz götür, göz, ay bülbül.

Sözdən çələng toxu bir-bir,
Çiçəkləri qoxu bir-bir,
Nəyin varsa, oxu bir-bir,
Al sinənə saz, ay bülbül.

Tər bənövşə gözəl, göyçək,
Səsin niyə qəmli, titrək,
Yanağında çiçək-çiçək,
Açılıbdı söz, ay bülbül.

Gələn gəlir, gedən ötür,
Dünya oyun ötür-ötür,
Elli kimi qələm götür,
Sevincini yaz, ay bülbül.

## HƏLƏ Kİ

Tanrı bizə ağıl verib, göz verib,
Gözüm görür, ağlım kəsir, hələ ki...
Qoşa verib, nə veribsə bizlərə,
Mənzil uzaq, yolumuz bir, hələ ki...

Gör haçandır, dağa-daşa düşmüşəm,
Yaydan keçib, qara, qışa düşmüşəm,
Yalanları bir gün başa düşmüşəm,
Mənim üçün bu da bir sirr, hələ ki...

Cığır da yox, duman, çəndə gedirəm,
Heç bilmirəm, hansı səmtə gedirəm.
Yol azmışam, ağlıkəmlə gedirəm,
Aramızdan yellər əsir, hələ ki...

Keçib-getdi ömrümüzün baharı,
Bağlanıbdı, itirmişəm açarı,
Yola düşüb dünyamızın qatarı,
Kim gecikir, kim tələsir, hələ ki...

Ürək qızan namərdi yox, mərdi yox,
Görən deyir, bu adamın dərdi yox,
Mən Ellinin yuvası yox, yurdu yox,
Vətəni var, o da əsir, hələ ki...

## EYLƏMİŞƏM

Adi gözəl idin bu yer üzündə,
Səni sənnən aldıb sən eyləmişəm.
Qaldırıb göyərin yeddi qatına,
Hələ tanrılara tən eyləmişəm.

Şuşadan, Gəncədən, Laçınnan seçib,
Gözəllik taxtınnan, tacınnan seçib,
Səni çiçəklərin içinnən seçib,
Dünyanın bəzəyi mən eyləmişəm.

Elə üzüksən ki, ləli qaşında,
Şimşəklər oynayır dəli başımda,
Elə zirvəsən ki, əli qaşında,
Mən səni zirvədə çən eyləmişəm.

Ellini ağladıb güldürən gözəl,
Mənə kimliyimi bildirən gözəl,
Məni sevə-sevə öldürən gözəl,
Səni saçlmarımda dən eyləmişəm.

## APARDI

Saxta Tanrılara bütlərə verdim,
Ürəyi, vicdanı lütlərə verdim.
Ağlımı ağıldan kütlərə verdim,
Özüm də bilmədim yellər apardı.

Qızıl alma gəzdim, taxtımı gəzdim,
İtirdim Xəzərdə, bəxtimi gəzdim.
Düşdüm Araz boyu, haqqımı gəzdim,
Tapmadım, bir dəli sellər apardı.

Ha dedim şəkərdi, baldı, gəlmədi,
Ağlımı başımnan aldı, gəlmədi,
Ruhumu daşlara çaldı, gəlmədi,
Onu da bir şirin dillər apardı.

Hardasa bir şimşək çaxdı, bəlkə də,
Susuz səhralara yağdı, bəlkə də,
Leylinin günahı yoxdu, bəlkə də,
Məcnunu səhralar, çöllər apardı.

Füzuli ah çəkdi, mən ah görmədim,
Əl açdım, Tanrıdan pənah görmədim,
Ay Elli, kimsədə günah görmədim,
Qara saçlarımı illər apardı.

## ÖLDÜR NİFRƏTİMİ

Quyruq bulamağın, hürüşün yalan,
Baxışın yalandı, duruşun yalan.
İlan təbəssümün, gülüşün yalan,
Öldür nifrətimi özümnən qabaq.

Göz yaşı tökməyən gülməyi bilməz,
Dərdin öhdəsinnən gəlməyi bilməz,
Sevgini, nifrəti, ölməyi bilməz,
Öldür nifrətimi özümnən qabaq.

Əlini qələmdən, qəstindən götür,
Öldür nifrətimi, üstündən götür,
Özünü İblisin postundan götür,
Öldür nifrətimi özümnən qabaq.

Elə bil dünyanı sən yaratmısan,
Bir deyil, bəlkə də, min yaratmısan,
Ellidə dağ boyda kin yaratmısan,
Öldür nifrətimi özümnən qabaq.

## OXUMA ŞEİRİMİ

Oxuma şeirimi, oxuma gözəl,
Təp məni yandırıb-yaxan gözlərə.
Məni həsrət qoydun gör neçə ildi,
Uzaqdan boylanıb-baxan gözlərə.

Bəlkə, gözlərində dumanlı dağam,
Nə qədər yaxınam, necə uzağam.
Bilməzdim bu qədər uduzacağam,
Buludtək tutulub yağan gözlərə.

Pərvanə kimiyəm, şəm əsiriyəm,
Zildə oxuyuram, bəm əsiriyəm.
Gör neçə illərdir qəm əsiriyəm,
Başımın üstündə çaxan gözlərə.

Elli, məhvərinnən qoparır məni,
Yan almır sahilə ömrün yelkəni.
Çəkib arxasınca aparır məni,
Süzülə-süzülə axan gözlərə.

## GƏLMİR

Qış kəsib qapını üzdü qonaqtək,
Payız qol götürüb, yaz daha gəlmir.
Ömrümün baharı-on səkkiz yaşı,
Getdi, qayıtmadı, qız, daha gəlmir.

Baharım, payızım, qışımın tacı,
Ömrümün, günümün, yaşımın tacı.
Dilimin əzbəri, başımın tacı,
“Sevirəm”-deməyə üz daha gəlmir.

Çoban at belində, sürülər gedib,
Min il halva yeyən dirilər gedib.
Daha üz çevirib, pərilər gedib,
Ölüb-dirilirəm, söz daha gəlmir.

Ömrümün köhləni yorulub daha,
Şahinim göylərdə vurulub daha.
Ruhumun telləri qırılıb daha,
Mizrab yetim qalıb, saz daha gəlmir.

Zaman karvan-karvan axıb-gedibdi,
İllər ətəyini yığıb-gedibdi.
Elli üz çevirib, çıxıb-gedibdi
Sonalı göllərə qaz daha gəlmir.

## DAŞIYIRAM

Bu sevda əynimdə qəm libasıymış,
Ünvansız ünvana qəm daşıyıram.
İllərdir həsrətin məni yandırır,
Kipriyim ucunda nəm daşıyıram.

Bir dəli harayam, səsəm, inanma,
Yüz yol külək olub əsəm, inanma.
"Zaman bir karvandır", desəm, inanma,
Dünyanın dərdini mən daşıyıram.

Ürəyin daş imiş, "daş" demək azmış,
Qardan soyuq imiş, "qış", demək azmış.
Göz yaşım, sevdiyim, Kürmüş, Arazmış,
Dərədən zirvəyə çən daşıyıram.

Ay Elli, ömrümün yalanı çoxmuş,
Gedənim gəlibdi, qalanı yoxmuş.
Bu ağıl satılmır, alanı yoxmuş,
İçimdə ağıldankəm daşıyıram.

## ALIBDI ƏLİMNƏN YURDUMU DÜNYA

Alıbdı əlimnən nəyim var, atam,
Öldürüb gözümün qurdunu dünya.
Qarımış dəvədi, ta çəkə bilmir,
Sürüyür ardınca dərdimi dünya.

Tapşırıb bir naşı əllərə məni,
Tullayıb bir dəli sellərə məni.
Salıb Məcnun kimi çöllərə məni,
Alıbdı əlimnən yurdumu dünya.

Mənimlə başlayıb, mənimlə bitməz,
Valla, bir kimsəylə qol-qola getməz.
Dəcəl uşaq kimi heç yola getməz,
Salar ayaqlara mərdini dünya.

Birinə göz verib, yaş verə bilmir,
Birinə ağılı, baş verə bilmir,
Zəri ha fırladır, şeş verə bilmir,
Tapşırıb tülküyə qurdunu dünya.

Yamanı gəzdirər çiyinlərində,
Yaxşını oynadar elə yerində,
Açılmaz sirr yatıb düyünlərində,
Ay Elli, möcüzə, sirdimi dünya?

## GÖZLƏMİŞ

Mənim qar çiçəyim, ya qarsan, gülüm,
Ömrümə gecikən baharsan, gülüm.
Nə yaxşı dünyada sən varsan, gülüm,
Nə yaxşı dünyamız belə gözəlmiş...

Bilmədim açılıb haçan bənövşəm,
Arxamca boylanan, qaçan bənövşəm.
Qara gözlərində açan bənövşəm,
Alma yanağında lalə gözəlmiş...

Bizləri əyəmməz kədər, qəm belə,
Qara saçlarına düşən dən belə,
Sən gözəl deyildin əzəldən belə,
Bəlkə də, gözlərin elə gözəlmiş...

Ellinin xətrinə “eh” dəyib, gözəl,
İpək tellərinə meh dəyib, gözəl.
Nərgiz gözlərinə şeh dəyib, gözəl,
Güllərin üstündə jalə gözəlmiş...

## NƏ GÜNAH

Gəl belə oynama sən “Kərəmini”,
Məni mənnən alan, səndə nə günah?
Yandırır ruhumu sənnən xəbərsiz,
Mizrabda nə günah, simdə nə günah?

Əridir içimdə qalan dərdləri,
Əl atıb saçını yolan dərdləri.
Yazan belə yazıb yalan dərdləri,
Ağlı seyrəklərdə, kəmdə nə günah?

İçimnən keçəni bir kərə bilmir,
Ayılmır, yüz kərə silkələ, bilmir.
İkinin üstünə bir gələ bilmir,
Alınan hesabda, cəmdə nə günha?

Min ildən sonra ayılan gözəl,
Yenə için-için oyulan gözəl,
Bir eşqin yolunda soyulan gözəl,
Tanrıda, bəndə də, məndə, nə günah?

Hər söz ürəyimdə bir qara xalmış,
Bəlkə də, oyunmuş, çətin sualmış.
Bu eşqin acısı şirinmiş, balmış,
Ellini öldürən qəmdə nə günah?...

## NECƏ QAYITMISAN

Susuz səhralara yağıb getmisən,
Dəlisov çaylara axıb getmisən.
Sevən ürəyimnən çıxıb getmisən,
Necə qayıtmısan, sən necə bir də?..

İçində közərən ocağam, nəyəm,
Yenə pöhrə verən ağacam, nəyəm?
Açılan qollarmı, qucağam, nəyəm,
Necə qayıtmısan, sən necə bir də?..

Gözlərin yol çəkir, yola borcludu,
Yüz dəfə boşala, dola borcludu,
Qiblən hansı səmtə ola, borcludu,
Necə qayıtmısan, sən necə bir də?..

Unutdun atdığın daşları, bəlkə,
Çatmısan ilahi qaşları, bəlkə,
Oyatdın "mürgülü quşları", bəlkə,
Necə qayıtmısan, sən necə bir də?..

Ay Elli, doğrayıb biçdiyin yolu,
Özün bəyəndiyin, seçdiyin yolu,
Sevinə-sevinə keçdiyin yolu,
Necə qayıtmısan, sən necə bir də?..

## GÜZGÜYƏ BAX Kİ

Yaxşı bax, sevdiyim, bəbəklərində,
Sevgi yanğısı var, qəm harayı var.
Suya həsrət qalan çiçəklər kimi,
Yetim bənövşənin çən harayı var.

Sevgisiz yaşamaq ölümdən betər,
Üzmə gəl özünü, üzmə bu qədər.
Qara gözlərində dərin bir kədər,
İpək saçlarında dən harayı var.

Min ildi itmişəm, ara, tap məni,
Bacarsan sinənnən çıxar, at məni.
Qəmli gülüşünə ələ, qat məni,
İçində bir dəli mən harayı var.

Boğma içindəki kədəri sözlə,
Sevgini, nifrəti, qəhəri sözlə.
Ay Elli, açılan səhəri gözlə,
Acı qəhqəhəsi, şən harayı var.

## BU ÇANTA KƏBƏDƏN GƏLİB

Bu çanta Kəbədən gəlib, bəlkə də,
Kəbənin ətri var, havası burda.
Allah amanında saxlayar məni,
Min dərdi, min qəmi, dəvası burda.

Mələklər gətirib öz qanadında,
Öpmüşəm, qoymuşam, gözümün üstə.
Ölüb-dirilmişəm gündə yüz dəfə,
Salıb kölgəsini sözümün üstə.

Tanrı nəfəsi var, sözdən söz çəkib,
Dünyanın dərdini çəkib atmışam.
Zülmət gecələri, qaranlıqları,
Ovcumun içində büküb atmışam.

Ətrini duyuram üz qabığından,
İçində nəyim yox, nələrim yatır,
Elə bil ruhumun tərcümanıdır,
Şirinli, acılı günlərim yatır.

Bir dəli sevda var içimdə, bəlkə,
Ya Tanrı eşqi var, ya nəfəsi var.
Peyğəmbər kəlamı, Peyğəmbər sözü,
Sevəb baxışların tərcüməsi var.

Bu çanta Kəbədən gəlib, bəlkə də,
Kəbənin ətri var, havası burda.
Allah amanında saxlayar məni,
Min dərdi, min qəmi, dəvası burda.

## ÖLDÜRƏCƏM İÇİMDƏKİ KƏDƏRİ

Öldürəcəm içimdəki kədəri,
Yana-yana yandıracam, yaxacam.
Üz çevirib arxasınca daş atıb,
Yenə dönüb arxasınca baxacam.

Qorumuşam bu sevdanı sirr kimi,
Dolanmişam ha başına pir kimi,
Məcrasınnan çıxan dəli Kür kimi,
Yatağınnan, məcrasınnan çıxacam.

Qabağında dağlar durub, dərə yox,
Tora düşən qızıl balıq, nərə yox,
Bu dəryanı kim bənd vurub, bərə yox,
Gücüm çatsa, dəhnəsinnən yıxacam.

İşıq tale, zülmət tale, su tale,
Mən nəyəm ki, o, qismətidi, o tale,
Çırpıb məni qayalara bu tale,
Bir nar kimi dönə-dönə sıxacam.

O, göylərdən endiribdi Ellini,
Neçə kərə sındırıbdı Ellini,
Zaman-zaman yandırıbdı Ellini,
Köz üstündə bir də şişə taxacam.

## BƏLKƏ DƏ

Bir qərib yolçuymuş bu qoca dünya,
Bu günəş əlində şamdı, bəlkə də.
Qaldırıb başına çəkir yüz dəfə,
Dənizlər əlində camdı, bəlkə də.

Ayağı altında bizləri görmür,
Cığırı, çəhlimi, izləri görmür.
Tutulub, bəlkə də gözləri görmür,
Tutan gözlərini qandı, bəlkə də.

Bəyənməz, dərdini alanları da,
Sırıyar bizlərə yalanları da.
Buraxıb qumara olanları da,
Bircə xal çatmadı, "yandı", bəlkə də.

Dünyamız zorlunun zoruna düşüb,
Dədəmiz Qorqudun qoruna düşüb,
Koroğlu Həmzənin toruna düşüb,
Demə, Koroğludu, xamdı, bəlkə də.

Bu torpaq uğrunda öləmməyənlər,
Varlığı, yoxluğu bilimməyənlər,
Ay Elli, qeyrətə gələmməyənlər,
Bu boyda dünyanı dandı, bəlkə də.

## NƏSƏN

İlahi gözəllik bəxt üzüyümdü,
Üzüyüm üstündə qaşmısan, nəsən?
Haçandı qalmısan yol ayrıcında,
Sən də mənim kimi çaşmısan, nəsən?

Məni mənnən alıb mənə dönmüsən,
Gedib qayıtmısan, yenə dönmüsən,
Qara saçlarımda dənə dönmüsən,
Kipriyim ucunda yaşmısan, nəsən?

Öz məğrur eşqiylə öyünən ürək,
Bəlkə, gileylənən, deyinən ürək,
Sinəmin altında döyünən ürək,
Çiynimin üstündə başmısan, nəsən?

Eşqin göylərində uça bilməyən,
Sirrini heç kəsə aça bilməyən,
Bir eşqin əlinnən qaça bilməyən,
Taleyin əlinnən qaçmısan, nəsən?

Dünyanın işinə tərs deyən gözəl,
İlahi sevgini tərs geyən gözəl,
Sevgidən Elliyə dərs deyən gözəl,
Ətirli çiçəksən, daşmısan, nəsən?

## GƏL

Payız köynəyini çıxar əyninnən,
Bahar köynəyini yenə də gey, gəl.
Budaqda yel vuran yarpaqlar kimi,
Titrək əllərinlə qapım döy, gəl.

Batan günəş kimi çıxıb getmisən,
Qara gözlərini sıxıb getmisən.
Hər şeyi dağıdıb, yıxıb getmisən,
Uçulan dünyamı yerinə qoy, gəl.

Sevincmi günahkar, qəmmi günahkar,
Qara saçlarımda dənmi günahkar?
Mənmi günahkaram, sənmi günahkar?
Bir-bir günahları ovcuma say, gəl.

Başlasın ömrümün yaz yağışları,
Sellənib aparsın qara daşları,
Elli, gözlərində sevinc yaşları,
Əyri baxanların gözünü oy, gəl.

## NEYLƏSİN

İlanın zəhləsi yarpızdan gedər,
Yuvası ağzında bitir, neyləsin?
Əsli çirkin olan bədəsillərə,
Yüz boya, yüz sığal, ətir neyləsin?

Nadanlar çoxalır, bar gətirirsə,
Bəlanı göylərdən zor gətirirsə,
Taleyim üstümə qar gətirirsə,
Saxlaya bilərmi, çətir neyləsin?

Bir daşı daş üstə qoya bilərmi?
Sözlərin ətrini duya bilərmi?
Acgözün gözləri doya bilərmi?
Təndirə yapılan fətir neyləsin?

Möminin işini səbr düzəldər,
Oğrunu, əyrini Sibir düzəldər.
Qozbeli, Ay Elli, qəbir düzəldər,
Axı düzəltməsin qəbir, neyləsin?

## BİLİNMİR

Uduzub qumarda bu dünya məni,
Uduzan bilinmir, udan bilinmir.
Mənim qabağımca gələn gedibdi,
Məndən sonra gələn adam bilinmir.

Kökümdən oynadıb seyrəltmə məni,
Belə qaralama heyrətlə məni,
Sən Allah, özünə öyrətmə məni,
Doğmayam, özgəyəm, yadam, bilinmir.

Bəs niyə açılmır, hanı dan, gözəl?
Sən ki, gözəl idin, hamıdan gözəl.
Mənə kimliyimi tanıdan gözəl,
Küləyəm, dənizəm, odam, bilinmir.

Bu gözəl dünyadan doymadı kimsə,
Özünü o yerə qoymadı kimsə.
Ellini günahkar saymadı kimsə,
Nəyimiş günahım, xatam, bilinmir.

## SÖZ GÖZƏL

Bir çəməndə dörd cür çiçək açıbdı,
Lalə gözəl, nərgiz gözəl, qız gözəl.
Dönə-dönə dolanaram başına,
İlk baharın gətirdiyi yaz gözəl.

Xilqət çəkən gözəlliyi kim çəkər,
Can alandı, baxışları qəm çəkər.
Ala gözlər buludlardan nəm çəkər,
Çıxar belə qarşımıza az gözəl.

Lələm ölüb, Lələ yenə lələmdi,
Qəm dünyamdı, kədər elə şələmdi.
Bir gözəldə üç şey gözə gələndi,
Dodaq qaymaq, dil şirindi, göz gözəl.

Gözmuncuğu alıb, bəlkə, taxım mən,
Elli, sevən gözlərinə baxım mən.
Sözə dönüm, ürəyinə axım mən,
Söz-Tanrıdı, söz Allahdı, söz-Gözəl.

## ELOĞLU

Kimliyini gəl tanıtma sən mənə,
Göz kölgəli, dil gödəkdi, eloğlu.
Sinən altda elə bil ki, qaya var,
Gəzdirdiyin nə ürəkdi, eloğlu?

Yüz ölçüdə, yüz normada gəzirsən,
Gah bulvarda, gah fermada gəzirsən.
Yüz sifətdə, yüz formada gəzirsən,
Bu yediyin nə çörəkdi, eloğlu?

Nə qoymuşdun, nə götürdün bilinmir,
Nə gövşədin, nə ötürdün bilinmir.
Nə qazandın, nə itirdin bilinmir,
Çaqqal vardı gödən sökdü, eloğlu.

Söykənirsən gah dayına, lələnə,
Heyranların bir-bir düşdü tələnə,
Nəyin yoxdu doğulannan ölənə,
Abırını çoxu bükdü, eloğlu.

Yalan vurur, infak səni, öldürür,
Boyalar da saçda dəni öldürür,
Arsız-arsız gülmə, məni öldürür,
Demə, ölən Elli təkdi, eloğlu.

## KEÇİR

Dağların döşündə bitən çiçəklər,
Bir-bir sığallanıb bulaqdan keçir.
İlahi duyğular, ilahi qəmlər,
Ürəkdən su içir, dodaqldan keçir.

Məni yaşatmadı yalan sevgilər,
İçimdə doğulub ölən sevgilər.
Məcnunu göllərə salan sevgilər,
Dodaqda gül açır, yanaqdan keçir.

Tələsmə, hər şeyə tələsən gözəl,
Öldürmə ruhumu hələ, sən, gözəl.
Gəl məni qınama belə, sən, gözəl,
Ürəyim yüz dəfə qınaqdan keçir.

Nə odam, ocağam, kömür deyiləm,
Gərəksiz illərəm, ömür deyiləm.
Mən ki, daş deyiləm, dəmir deyiləm,
Yolların dolanıb uzaqdan keçir.

İçimdə boy atıb ucalan könül,
Ellinin başında tac olan könül,
Əlləri Tanrıya açılan könül,
Məni dönə-dönə sınaqdan keçir.

## QALMIŞAM

Dünya, məni ələyindən keçirdin,
Dönə-dönə sınaqlarda qalmışam.
Otuz səkkiz, otuz doqquz, bəlkə də,
Mən qırxıncı otaqlarda qalmışam.

Gah yandırıb, gah da yaxdın od kimi,
Dəryaz alıb gah da çaldın ot kimi,
Belə baxma özgə kimi, yad kimi,
Əyri gözdə, qınaqlarda qalmışam.

Yatıb qaldım, oyat məni, silkələ,
Məni oğuz, ya da elə Türk elə,
Söz tanrıdı, söz hikmədi, bəlkə də,
Yazılmamış varaqlarda qalmışam.

O, mən iydim bu dünyanı oynadan,
Gecə keçdim bu dünyanı duymadan.
Sevə-sevə ölüb getdim dünyadan,
Çiçək açan yanaqlarda qalmışam.

Alıb getdi heyrət məni lal kimi,
Ürəyimdə yaşamısan xal kimi.
Elli, sözlər qələmində bal kimi,
Şirin, şəkər dodaqlarda qalmışam.

## BİR GÖZƏL AĞLAYIR

Bir gözəl ağlayır içimdə, Allah,
Quruyub göz yaşı yanaqlarında.
Dilinin uçunda “sevirəm” sözü,
Donub gülüşləri dodaqlarında.

Kipriyi ucunda gilə yaş qalıb,
Bir nifrət uyuyub, bir savaş qalıb.
Haçandı atılan qara daş qalıb,
Titrəyən əlində, barmaqlarında.

Ölüb-dirilibdi sözümnən qabaq,
Yanıb kül olubdu közümnən qabaq.
Məni də saraltdı özümnən qabaq,
Ömrümün saralmış varaqlarında.

Titrədir səsini qəhər yelləri,
Sevən ürəyini səhər yelləri,
Elli, Leyli kimi gəzir çölləri,
Bir dəli sevdanın soraqlarında.

## NEYNİM

Könül aram tutub dincələ bilmir,
Nə yaşada bilmir, nə ölə bilmir.
İkinin üstünə bir gələ bilmir,
Qoşubdu başını başlara, neynim?

Salıbdı min ildi qəmə meylimi,
O gözlər gileyli, mən gileylimi?
Mən Məcnun deyiləm, o da Leylimi?
Düşmüşəm dağlara, daşlara, neynim?

Atdığı çiçəkdi, söz daşı deyil,
Kəsdiyim qurbandı, söz başı deyil.
Bu, gözmuncuğudu, göz yaşı deyil,
Yanaqdan süzülən yaşlara, neynim?

Küsdürüb könlümü alanda varam,
Öldürüb saçını yolanda varam,
Ağlımı başımnan alanda varam,
O qara gözlərə, qaşlara, neynim?

Sevda ər meydanı, qaçan qalmadı,
Eşqin qapısını açan qalmadı,
Dağ sevdi, daş sevdi, uçan qalmadı,
Ay Elli, “Qu”lara, quşlara, neynim?

## MƏNİ

Bulud ətəyimi yığıb getmişəm,
Kədəri sinəmə sıxıb getmişəm.
Haçandı dünyadan çıxıb getmişəm,
Diriykən öldürüb nadanlar məni.

Şimşəyəm, alovam, ocağam, odam,
Səninçün doğmayam, ögeyəm, yadam?
Tanrı sevgisi var içimdə, atam,
Bəs niyə anlamır adamlar məni?

Çıxarıb kökümnən atıblar daha,
Aşıma soyuq su qatıblar daha,
Keçi qiymətinə satıblar daha,
Qoyub sapandına atanlar məni.

Neçə nöqsanı var adi gülün də,
Elli, ölçüsü yox fitnə-fitnə də.
Vurmağa hazırmış qılınc əlində,
Min ildi marığa yatanlar məni.

## VAR

Haçandır səninçün özgəyəm, yadam,
Bəlkə, yaxşı ata, yaman övladam.
Dünyanın dərdini çəkərəm, atam,
Bilmirsən nə qədər ağrılarım var.

Alıblar bu gözəl şəhəri mənnən,
Gecəni, gündüzü, səhəri mənnən.
Yoxmuş bu dünyanın xəbəri mənnən,
Nə qədər sualım, sorğularım var.

Çıxıbdı yadımnan doğma adlarım,
Elə bil qırılıb qol-qanadlarım.
Xaric səslənirəm, qırıq notalarım,
Yersiz nidalarım, vurğularım var.

İllərdi əsirəm qəmin əlində,
Neyləyim ağıldan kəmin əlində.
Oyunçaq olmuşam sənin əlində,
Ruhum var, eşqim var, duyğularım var...

Elə yorulmuşam sorğu-savaşdan,
Elli, nə umursan ürəyi daşdan.
Ruhumu bədənnən, ağlımı başdan,
Tükü gözdən çəkən “oğrularım” var.

## MÜƏLLİM

*Sabiranə*

Yediyim, bu qələmin yazdığı qoy bir səfə olsun,
At deyil, mal da deyil, fil, ya da qoy lap dəvə olsun.
Sənə min yol deyilib, qoy bu da min bir dəfə olsun,
Belə boş-boş danışıb başlama fəryadə, müəllim,
Kəsik dillərini qarnına qoy, adə, müəllim.

Sənə nə villamızın sayı ondu, çoxdu, ya nə?
İşimiz haqq işidir, bəlkə də, nahaxdı, ya nə?
Hər səhər qarşımıza qara pişik çıxdı, ya nə?
Kəsərik dillərini, qarnına qoy, adə, müəllim,
Belə boş-boş danışıb başlama fəryadə, müəllim!

Hələ var almağıma, bir sarayın dəsti qalıb,
Tanyalar çıxıb-gedib, bizlərə tək Bəsti qalıb,
Mənə nə custunuzun altı gedib, üstü qalıb,
Dolanırsan maaşa, bir də quru adə, müəllim,
Kəsərik dillərini, qarnına qoy, adə, müəllim!

Yediyin qatıq imiş, bir də quru cadlar imiş,
Dostunuz, sirdaşınız körpəcə övladlar imiş,
Cibi boş, ağlı dayaz özün kimi zadlar imiş,
Belə boş-boş danışıb başlama fəryadə, müəllim!
Kəsərik dillərini, qarnına qoy, adə, müəllim!

Sənə nə torpağımın altı qızıl, üstü qızıl,
Qızımın, qızdığımın, arvadımın dəsti qızıl.
Doymayır gözlərimiz, heç deməyir bəsdi qızıl,
Dolanırsan maaşa, bir də quru ada, müəllim,
Kəsərik dillərini, qarnına qoy, adə, müəllim!

Di çəkil öz qınına, ortalığa girmə, qağa,
Sənə yüz yol demişik, yum gözünü görmə, qağa.
Ağlını ya savetə, ya urusa vermə, qağa,
Kəsərik dillərini, qarnına qoy, adə, müəllim!
Belə boş-boş danışıb başlama fəryadə, müəllim!



# İNCİMƏZMİ

Qələmnən, şeirdən, ləlǝkdən gözəl,
Tanrıdan, bəndədən, mələkdən gözəl.
Sən güldən gözəlsən, çiçəkdən gözəl,
Mən sənə gül desəm, gül inciməzmi?

Bitirib bu torpaq, yer bənövşəni,
Öldürüb-dirildib sirr bənövşəni.
Taxsan sinən üstə tər bənövşəni,
Titrəyən barmaqlar, əl inciməzmi?

Hər tərəf gül-çiçək, gül içindəsən,
Şirinsən, şəkərsən, bal içindəsən.
Təpədən dırnağa tül içindəsən,
Toxunsam, görəsən, tül inciməzmi?

Keçmişəm taleyin hər sınağınnan,
Bir alagözlünün hər qınağınnan,
Öpsəm lalələrin al yanağınnan,
Dodaq inciməzmi, dil inciməzmi?

## GÖRƏSƏN

Gözlərində doğan günəş, açan gül,
Kim yazıbdı bu yazını, görəsən?
Ürəyimdə sönən ümid, batan səs,
Kim çəkəcək bu cəzanı, görəsən?

Mən qüruba, sən üz çevir, şərqə bax,
Mən cənuba, sən şimala qərbə bax.
Aman, Allah, aramızda fərqə bax,
Kim törədib bu qəzanı, görəsən?

Sən işıqsan, sən təzəsən, mən yarı,
Sən dağların çiçəyisən, mən qarı.
Ulduzlar yox, gecə keçir, tən yarı,
Kimlər silib bu fəzanı, görəsən?

Göyə çəkib yuxumuzu bu sevda,
Varımızı, yoxumuzu bu sevda.
Tərsə yozub yuxumuzu bu sevda,
Kim çağırıb bu yozanı, görəsən?

Çiçəklərin ovluyubdu, ay Elli,
Dəyirmanın sovulubdu, ay Elli,
O, cənnətdən qovulubdu, ay Elli,
Kim çəkəcək bu cəzanı, görəsən?

## YÖN VƏTƏNƏ, ÜZ TANRIYA, HAQQA BAX

Bədnəzərin gözü dəyib bizlərə,
Tanrı yazan taleyə bax, bəxtə bax.
Dərdimizin yaşı bəlkə, min ildi,
Aman Allah, vaxtdan uca vaxta bax.

Söz bir andı, söz əsirdi, söz ildi,
Dərdlərimiz nə əridi, çözüldü,
Zərlərimiz qoşa düşmür yüz ildi,
Fırladırıq, ha atırıq baxta-baxt.

Özgələrə verə-verə bölüblər,
Gözlərimiz görə-görə bölüblər.
Şaqqalayıb neçə yerə bölüblər,
Nəsiminin şaqqasıdır, şaqqa bax.

Taleyimiz qəm libası geysə də,
Yükümüzü qürbət eldə əysə də,
Ağacdələn qapımızı döysə də,
Döyəcləyir, səsi gəlmir taxta bax.

Axarına salıb səni çay, Elli,
Vurub dağdan-daşa səni tay, Elli,
Dilim gödək, üzüm qara, ay Elli,
Yön Vətənə, üz Tanrıya, Haqqa bax.

## XAL EYLƏ MƏNİ

Şimşəyəm, göylərdə sınıb qalmışam,
Uca zirvələrdə yanıb qalmışam.
Arı tək pətəkdə donub qalmışam,
Şəkər dodaqlarda bal eylə məni.

Fərqi nə, gül dərəm, ya çiçək dərəm,
Sevən könül verəm, ürək göndərəm.
Mən zərin qədrini bilən zərgərəm,
Gözəllik önündə lal eylə məni.

Ömür kitabına yazılım, gedim,
Şirin yuxu kimi yozulum gedim,
Dolanım boynuna, asılım, gedim,
Düz məni qatara, ləl eylə məni.

Ruhum çiçəkləyə, dərd aça bir gün,
Yenə qanadlana, dərd uça bir gün,
Mənnən üz çevirə, dərd qaça bir gün,
Tanrı yaxasında əl eylə məni.

Ellini sac üstə qovur köz kimi,
Yandır ürəyimi, yandır söz kimi.
Ruhumu oxşayan bir cüt göz kimi,
Lalə yanağına xal eylə məni.

## AY MƏNƏ AĞLAMAQ ÖYRƏDƏN OĞLAN

Dərddədir elimin başı haçandır,
Dağılıb divarı daşı haçandır,
Qurumur gözünün yaşı haçandır,
Ay mənə ağlamaq öyrədən oğlan.

İgidlər öc alır belə ağlamır,
Yurdu talan olan elə ağlamır,
Köhnə yaralarım qaysaq bağlamır,
Ay mənə ağlamaq öyrədən oğlan.

Gəl məni ağlatma tiranlar kimi,
Sonuncu ümidi qıranlar kimi,
Köhnə ərabələr, viranlar kimi,
Ay mənə ağlamaq öyrədən oğlan.

Qara yaylığını araya sərmə,
Tökülən qanlara, haraya sərmə.
Məni ağa büküb, qaraya sərmə,
Ay mənə ağlamaq öyrədən oğlan.

İçimnən kədəri çəkib atmadın,
Gərəksiz kağıztək büküb atmadın,
Dərdimi çaylara töküb atmadın,
Elliyə ağlamaq öyrədən oğlan...

## ÇƏKƏN

Sellənib yağıram, qoy axım-gedim,
Hər bəndi, bərəni qoy yıxım-gedim.
Saxlama yolumnan qoy çıxım-gedim,
Yalvarıb-yaxarma, ətəyi çəkən.

Bir dəli sevdaya büküb aparma,
Ruhumu çaylara töküb aparma,
Ardınca göylərə çəkib aparma,
Hayana gedirik, yedəyi çəkən?

Bu necə gözəldi, xalı da yoxdu,
Sevib-sevilməyə halı da yoxdu,
Dilinin altında balı da yoxdu,
Gəl yorma özünü, pətəyi çəkən.

Yalan üz qızardar, üzümə baxma,
Onsuz da yalandı sözümə baxma.
Amandı Ellinin gözünə baxma,
Barmağı yüz dəfə tətiyə çəkən.

## İŞİM YOX

Gəl məni qınama, a qaragözlüm,
Mən qələm əhliyəm, zorla işim yox.
Min ildi öz yolum, öz cığırım var,
Milyondan biriyəm, birlə işim yox.

Keçir ya ələkdən, ya yoğur məni,
Töküb saç üstünə ya qovur məni.
Yüz dəfə harayla, ya çağır məni,
Dolandır başına hərlə, işim yox.

Şimşəyəm, alovam, suyam, bəlkə də,
Quruyan bulağam, çayam, bəlkə də,
Nəyəmsə özüməm, buyam, bəlkə də,
Vallah, müəmmayla, sirlə işim yox.

Demə ki, dünyanın key adamıyam,
Ağıldan kəmiyəm, səy adamıyam.
Göylərdən enmişəm göy adamıyam,
Mənim bu torpaqla, yerlə işim yox.

Çiçəyim sevdadı, barım sevdadı,
Pətəyim sevdadı, arım sevdadı.
Dövlətim məhəbbət, varım sevdadı,
Ay Elli, dövlətlə, varla işim yox.

## HAQQIMSAN MƏNİM

Ağzı xeyir sözlüm, xeyir xəbərlim,
Hər sözün şəkərdi, baldı məminçün.
Gəl elə danışma, gəl elə demə,
Gözün ürəyimdə xaldı mənimçün.

Göylərin günəşi sönüb elə bil,
Tale üz çevirib, dönüb elə bil.
Bu dünya heyrətdən donub elə bil,
Bəlkə, yaranışdan laldı mənimçün.

İçimdə təklik var, çölümdə təklik,
Çiçəyim, bənövşəm, gülümdə təklik,
Kimsəsiz cığırlar, xınalı kəklik,
Boyalana-boyalana qaldı mənimçün.

Bu sevda göylərə qaldırıb məni,
Ağladıb, yüz dəfə güldürüb məni,
Min yol sevə-sevə öldürüb məni,
Sonra saçlarını yoldu mənimçün.

Qızıl balıq gəzdim, taxt qazanmadım,
Ay Elli, bar verən bəxt qazanmadım,
Rahat yaşamağa vaxt qazanmadım,
Bu dünya “Kərəmi” çaldı mənimçün.

## DAHA NAĞILLARA İNANMIRAM

*N.Kəsəmənliyə*

Dünya bir nağılmış, sonu yoxuymuş,
Ürəyi, vicdanı, canı yoxuymuş.
Gözəllik doqquzmuş, donu yoxuymuş,
Daha nağıllara inanmıram mən.

Qoca Süleymannan qalanmış, demə,
Quyruğu üstündə ilanmış, demə,
Ağatlı oğlan da yalanmış, demə,
Daha nağıllara inanmıram mən.

Dolanıb boynuma, ha boğur məni,
Tanıyıb kimsəsiz, ya fağır məni,
Gəlmərəm, harayla, ya çağır məni,
Daha nağıllara inanmıram mən.

Mənə bir gərəksiz ağıl vermisən,
Uşaqtək əlimə noğul vermisən,
Başımı qatmağa nağıl vermisən,
Daha nağıllara inanmıram mən.

Yalanlar çoxuna şan gətirirsə,
Ay Elli, ölüyə can gətirirsə,
Göydən düşən alma qan gətirirsə,
Daha nağıllara inanmıram mən.

## DOLANDIRIR

Bu ağlım, bu hissim, kədərim, qəmim,
Dünyanı başıma hey dolandırır.
Bir Tanrı inamı içimizdədi,
Səni də, məni də göy dolandırır.

Kimini yaşadır qara göz-qaşı,
Kimini atdığı qara söz daşı,
Kiminin süfrədə qalıb göz yaşı,
Kimini göysatan, göy dolandırır.

Kiminin çörəyi Sibirdən çıxır,
Əlağa Vahiddən, Sabirdən çıxır,
Kiminin qazancı qəbirdən çıxır,
Kimi cəh-cəh vurur, toy dolandırır.

Ruhum talan olub, ay atamoğlu,
Mənə qalan olub, ay atamoğlu,
Tanrı yalan olub, ay atamoğlu,
Dünyanı bir dəli, səy dolandırır.

Bulanıb sellənən çay olmamışam,
Pərsəng olmamışam, pay olmamışam,
Mən ki, bəy deyiləm, bəy olmamışam,
Ay Elli, çoxunu bəy dolandırır.

## BƏS NİYƏ GƏLMƏDİN, A QARAGÖZLÜM

Sevdim payızları, qışları sevdim,
O qara gözləri, qaşları sevdim.
Həsrətin yandıran daşları sevdim,
Bəs niyə gəlmədin, a qaragözlüm?..

Çəkdim bu kədəri, çəki gəlmədi,
Ömrümün, günümün təki gəlmədin.
Saraldı gözümün kökü, gəlmədin,
Bəs niyə gəlmədin, a qaragözlüm?..

Xəyalın arayıb tapardı məni,
Yüz dəfə kökümnən qopardı məni,
Kədər Araz kimi apardı məni,
Bəs niyə gəlmədin, a qaragözlüm?..

Düşmədin, yüz yerdən yarıldı göylər,
Elli, günəş batdı, qaraldı göylər.
Bir dəli həsrətə sarıldı göylər,
Bəs niyə gəlmədin, a qaragözlüm?..

## DEYİL Kİ

Bu sevgini günah yazma adıma,
Günahlarım yuyulası deyil ki?!
Bir günahın min budağı var, gülüm,
Bircə-bircə sayılası deyil ki?!

Yuya bilməz, nə qar, yağış,s eşqi,
Böyütmüşəm içimdəki “Qu” eşqi.
Suvarmışam göz yaşımla bu eşqi,
Məzar üstə qoyulası deyil ki?!

Qətrə-qətrə yığ avcuma, bürmələ,
Sürmə kimi çək gözünə, sürmələ,
Qurban deyib başımıza hərləmə,
Kəsiləsi, soyulası deyil ki?!

Ayrılıqdı, vüsal deyil bu sevda,
Həqiqətdi, xəyal deyil bu sevda.
Şəkər deyil, nə bal deyil bu sevda,
Hər yetənə yayılası deyil ki?!

Qazanmışıq alnımızın təriylə,
Yaşamışıq xeyriylə, şəriylə.
Dəvə adlı dünyamızın nəriylə,
Tərəziyə qoyulası deyil ki?!

Ömrümüzə necə şirin dad verib,
Elli yazıb, yüz ünvana ad verib.
Ürəyimiz neçə yerdən çat verib,
İçin-için o yoldaşı deyil ki?!

## GÖRƏSİYƏM

*Yuxularımda tez-tez köç görürəm.*
*Avqust Cəbrayılın işğal günüdür.*

Sönüb ümidlərin son işartısı,
Allanan yanağın son qızartısı,
Zəncirdə köpəyin son ulartısı,
Yuxuda nə qədər köç görəsiyəm.

Aşdı ayağından məlik Məmmədi,
Saxlaya bilmədi çəlik Məmmədi.
Çıxarmaz quyudan Məlikməmmədi,
Yuxuda bir qara qoç görəsiyəm.

Səhra yuxularım, təşnə bulaqlar,
Bir də tərs dəyirman, tərs şapalaqlar.
Toruma düşməyən qızıl balıqlar,
Başımda qızıldan tac görəsiyəm.

Günün doğuşu yox, ayın batarı,
Saxlaya bilmədim gedən qatarı,
Yuxuda əriməz dağların qarı,
Qarğıtək uzanan saç görəsiyəm.

Məndən ötən daşlar sənə dəymədi,
Ay Elli, ha atdım, yenə dəymədi.
Dəvənin quyruğu yerə dəymədi,
Yuxuda nə qədər öc görəsiyəm.

## GÜNAHLARIM CƏZAMDI

Səhv addımım, yalnışlarım, günahım,
Günahlarım günah deyil, cəzamdı.
Xəyallarım yerdə deyil, göydədi,
Yer yurdumdu, göy yuvamdı, fəzamdı.

Göydən düşüb, göydən enib gəlmişəm,
Ulduz kimi yanıb, sönüb gəlmişəm.
Getmiş idim, bir də dönüb gəlmişəm,
Yer ürəyim, göylər başım, əzamdı.

İlim-ilim itirmişəm qorxunu,
Bağlamışam ümidlərin arxını.
Fırladıram bir taleyin çarxını,
Söz canımdı, ruhum qələm-yazandı.

Neçədəydim neçələrə düşmüşəm,
Yarpaq kimi küçələrə düşmüşəm,
Açılmayan gecələrə düşmüşəm,
Dəli könül Dədəm Qorqud - ozandı.

Ömür sələm, sələminə borcluyam,
Gedəninə, gələninə borcluyam.
Əlimdəki qələminə borcluyam,
Elli yazan, görən kimlər pozandı.

## SƏNİNÇÜN

Gəl məni qınama, qınama gözəl,
Onsuz da özgəyəm, yadam səninçün.
Ot basıb yolları, cığırları da,
Bir köhnə ünvanam, adam səninçün.

Yüz yalan ünvanda, bir yalan adda,
Sonuncu yarpaqtək saralan adda.
Bir kimsə yox imiş mən olan adda,
Sönən bir ocağam, odam səninçün.

Götürüb başımı qəmin əlinnən,
Getmişəm bir bəxti kəmin əlinnən.
Ölmüşəm yüz dəfə sənin əlinnən,
Yenidən gəlmişəm, adam səninçün.

Ay Elli, pozulmaz çətin günahlar,
Kimsəsiz günahlar, yetim günahlar.
Ölçülüb-biçilib bütün günahlar,
Günahım səninçün, xatam səninçün.

## YANDIM

Göylərə çəkildi, yuxum gəlmədi,
Başımı söykədim balınca, yandım.
Dünya gözlərimdə ələndi bir-bir,
Şirin xəyalların dalınca yandım.

Bəlkə də, əlçatmaz şirin xəyalam,
Payız yarpağında saralan xalam.
Lalə yanağında qaralan xalam,
Qara xalın kimi, qalınca yandım.

Hər şeyin sonu var, “döz”- deyənləri,
Sözdən kəfən geyib, söz geyənləri,
Sevdim hikmət dolu söz deyənləri,
Sözünü bilməyən gülüncə yandım.

O, Vətən torpağı-qeyrət gözləyən,
Füzuli qələmi-heyrət gözləyən.
Məni vurmaq üçün fürsət gözləyən,
Havada oynayan qılınca yandım.

Yaradan çəkəni gözəl çəkmədi,
Könül sevən gözəl, göz əl çəkmədi,
Mən çəkdim əlimi, gözəl çəkmədi,
Öldürdü Ellini, ölüncə yandım.

## QALMIR

Qəm çəkmə, eloğlu, qəmdən keçibdi,
Dərdi dərd öldürür, qəm qəmə qalmır.
Bu dünya hamının dədə malıymış,
Bilirəm, axırda heç kimə qalmır.

Yaşa adam kimi, adam balası,
Öldürmə bizləri, atam balası.
Pisliyə nə var ki, nadan balası,
Ağıldan seyrəyə, nə kəmə qalmır.

Açılır nə qədər sirr, nə veribsə,
Xeyir nə veribsə, şər nə veribsə.
Alır əlimizdən hər nə veribsə,
Sonuncu mənzilə, heç demə, qalmır.

Ruhumu oxşayıb dincələn gözəl,
Dərdimi, qəmimi tən bölən gözəl,
İkinin üstünə bir gələn gözəl,
Elli də bilir ki, cəm cəmə qalmaz.

## İNDİ

Məni mənnən alıb aparan gözəl,
Çırpıb qayalara, daşlara indi.
Məni həsrət qoyub gör neçə vaxtdı,
O qara gözlərə, qaşlara indi.

Ümid çiçəkləmir, sevgi donubdu,
Yuxum ərşə çıxıb, mürgü donubdu.
Həsarət çəkilib, bürkü donubdu,
Düşmüşəm payıza, qışlara indi.

Od vurub, odunnan uzaq dolanır,
İsti baxışında sazaq dolanır.
İçimdə bir qərib yazıq dolanır,
Ta baxmır yanaqda yaşlara indi.

Üyüdüb içimdə bitən dərdləri,
Ötən xəyalları, ötən dərdləri.
Ay Elli, bilmirəm nədən dərdləri,
Səpmişəm, aparsın quşlara indi.

## MƏN ELƏ BİLİRDİM

Bir dəli sevdanın dəli harayı,
Boğulub içimdə, ölüb içimdə.
İkiyə bölünür, üçə bölünmür,
Məni neçə yerə bölüb içində.

Mən elə bilirdim körpə doğulan,
Çiçəklər ətrini sənnən alıbdı.
Duman gözəlliyi, qar bəyazlığı,
Sənnən oğurlayıb, mənnən alıbdı.

Dəyməz heç nəyi bu kədər, bu qəm,
Keçirsən yanımdan biganələrtək.
Sən demə, ürəyin yoxuymuş, gülüm,
Dağıtdın hər şeyi divanələrtək.

Mən elə bilirdim, elə bilirdim,
Başımın üstündə doğan günəşsən.
Sən məni ocaqsız, sən məni odsuz,
Yandıran günəşsən, yaxan günəşsən.

Mən hardan biləydim, nədən biləydim,
Alladıb yüz dəfə ilğımlar məni?..
Qaldırıb yüz dəfə, yıxıb yüz dəfə,
Ayağım altında bu qumlar məni.

Mən hardan biləydim, nədən biləydim,
Bu sevgi deyilmiş, qəmmiş, kədərmiş.
Vaxtsız qonaq kimi, vaxtsız yel kimi,
Ay Elli, içimnən keçib-gedərmiş.

## QORXURAM

Özümdən xəbərsiz qəmim olmusan,
Qəmi itirməkdən elə qorxuram.
Yüz dəfə itirib yenə tapmışam,
Səni itirməkdən elə qorxuram.

Üyüt qram-qram, ya ələ, bilməm,
Ya kökümnən qopar, silkələ, bilməm.
İkinin üstünə bir gələ bilməm,
Cəmi itirməkdən elə qorxuram.

Layladan uzağam, nağıldan kəməm,
Ağ atlı igiddən, oğuldan kəməm.
Bəlkə də, seyrəyəm, ağıldan kəməm,
Kəmi itirməkdən elə qorxuram.

Hələ açılmayan gülümsən mənim,
Susuz səhralarım, çölümsən mənim,
Ay Elli, günümsən, elimsən mənim,
Səni itirməkdən elə qorxuram.

## DÜNYAM

Qoy səhraya yağım-gedim,
Bəxt ulduzum, axım-gedim.
Yol ver mənə çıxım-gedim,
Saçlarını yol, ay dünyam.

Günahları al boynuna,
Dola bir-bir sal boynuma.
Öpüb, oxşa, qol boynuma,
Bircə dəfə sal, ay dünyam.

Sevincimə kədər də qat,
Lap istəsən, zəhər də qat.
Dillərimə şəkər də qat,
Bir azca da bal, ay dünyam.

Qabar qoydun əllərimə,
Su vermədin güllərimə,
Qadağa qoy dillərimə,
Eylə məni lal, ay dünyam.

Söylə gəldi söz, yeri var,
Ürəyimdə köz yeri var.
Ellinin də öz yeri var,
Bir könlümü al, ay dünyam.

## GÜNAH

Sən belədeyildin əzəl, bəlkə də,
Daha gözəl idin, gözəl, bəlkə də.
Otyuz il, əlli il, yüz il, bəlkə də,
Səni unutmuşam lap çoxdan, gözəl.

Sürüdü ardınca qəm məni yoxsa,
Tanrı yalnış vurub ilməni yoxsa?
Sən məni tapmışdın, mən səni, yoxsa,
Bu sevda gəlmişdi ya hacdan, gözəl?..

Acdan xəbəri yox toxun min ildi,
Dəyir qayalara oxum min ildi,
Yanımda dolaşır ruhun min ildi,
Özünsə uzaqdan uzaqsan, gözəl.

Bu kədər ögeydi, yuxuma yaddı,
Silinib yaddaşım, çoxuna yaddı.
Ruhumu oxşamır, ruhuma yaddı,
Tökülüb o xallar yaranıxdan, gözəl.

Elli, günahları ələ, ağlama,
Zaman ağladacaq, hələ ağlama,
Qayadan yıxılan kələ ağlama,
Bezmişəm özümü qınaxdan, gözəl.

## QAYIT

Sellənib getmisən, yağıb getmisən,
Hər bəndi, bərəni yıxıb getmisən.
Yandıra-yandıra çıxıb getmisən,
Qayıt ürəyimə, qayıda bilsən.

Sən mənim içimdə dar ağacımsan,
Bəlkə də sonuncu nar ağacımsan,
Payız çiçəkləyən bar ağacımsan,
Qayıt ürəyimə, qayıda bilsən.

Gəldiyim dünyaya sən də gəlmisən,
Mən gələn şəhərə, kəndə gəlmisən.
Yol azıb dumanda, çənə gəlmisən,
Qayıt ürəyimə, qayıda bilsən.

İpək saçlarında yaz havası var,
Şəkər gülüşündə saz havası var,
Allanan yanaqda qız havası var,
Qayıt ürəyimə, qayıda bilsən.

Ellinin dərdini şələdən soruş,
Taleyin saldığı tələdən soruş,
Əslidən, Kərəmdən, lələdən soruş,
Qayıt ürəyimə, qayıda bilsən.

## DÜŞÜB

Qələmim varağa yatmır haçandır,
O qara gözlərin dilimnən düşüb.
Ürəyim bir billur şüşə kimiymiş,
Yüz yerə bölünüb, əlimnən düşüb.

Həsrət körpü salmır yollara bir də,
Ürəyim can atmır qollara bir də,
Elə bil bu sevda, bu göy, bu yer də,
Özgə tamaşadan, filimnən düşüb.

Bezmişəm quruca qınaqlarınnan,
Təbəssüm tökülüb dodaqlarınnan,
Utancaq bir sevgi yanaqlarınnan,
Əlimin sığalı telinnən düşüb.

Ay Elli, bu dünya üzümə baxmır,
Nə ağlım, ürəyim sözümə baxmır,
Misralar yol azıb düzümə baxmır,
Küsən çiçəyimnən, gülümnən düşüb.

## GÖYLƏR MƏNİM YERİM DEYİL

Əlimi üzüb gəlmişəm,
Heyrətdən bezib gəlmişəm,
Göylərdən küsüb gəlmişəm,
Göylər mənim yerim deyil.

Dünyanın dərd-səri orda,
Vallah, xeyri, şəri orda,
Tanrı adlı biri orda,
Göylər mənim yerim deyil.

Sevgisi yox, nifrəti yox,
O əvvəlki qüdrəti yox,
Heç onun da qeyrəti yox,
Göylər mənim yerim deyil.

Nə Kəbəyəm, kəlisayam,
Nə Musayam, nə İsayam,
Bəlkə, mən də Məsi hayam?
Göylər mənim yerim deyil,
Elli, mənim yerim deyil.



## DOYUNCA

Bezmədim taleyin naxışlarınnan,
Payızın o soyuq yağışlarınnan.
Doya bilməsəm də baxışlarınnan,
Qara gözlərinə baxım doyunca.

Tutum əllərinnən yar dolandırım,
Çıxarım, başına var dolandırım,
Yağım çiçək-çiçək qar dolandırım,
Alışan ruhuna yağım doyunca.

Eşqini gözümə çəkim bal kimi,
Dayanım qarşında yenə lal kimi,
Əsmər yanağında qara xal kimi,
Çoxunu yandırım, yaxım doyunca.

Gedəm Kərəmlərin Lələsi ilə,
Göydə buludların şələsi ilə,
Qara gözlərinin giləsi ilə,
Sevən ürəyinə axım doyunca.

Bir dəli dağ çayı, bir çəmən gözəl,
Onlardan gözəlsən, bircə sən, gözəl,
Ellinin gözündə bircəsən, gözəl,
Sənə gözmuncuğu taxım doyunca.

## BAXIŞLARINDA

İsti göz yaşıyam, bir dəli sevda,
Bəlkə, bir kədərəm baxışlarında?
Sahilsiz dənizəm, qum üstə yazı,
Ya gəldi-gedərəm baxışlarında?

İtirib özümü, gəzməyə dəyməz,
Hər ağrı-acıya dözməyə dəyməz,
Daha usanmağa, bezməyə dəyməz,
Betərdən betərəm baxışlarında.

Budaqda yuvasız quşam, bəlkə də,
Hamıdan zirvəyəm, başam, bəlkə də,
Qara gözlərində yaşam, bəlkə də,
Əriyib itərəm baxışlarında.

“İnci” lə, “Tövrat”am, kitabəyəm mən,
Allah bəndəsiyəm, Vəhabiyəm mən.
De, hansı günahın sahibiyəm mən?
Haqsızam, hədərəm baxışlarında.

Bu eşqi nadanın sözünnən qoru,
Bir də bədnəzərin gözünnən qoru,
Ellini həsrətin közünnən qoru,
Yanmağa yetərəm baxışlarında.

## GET

Sən Allah, əlini çəkmə əlimnən,
Sonuncu ümidi barı saxla, get.
İsti göz yaşıyla töküb ovcuna,
Gülüm, yana-yana barı ağla, get.

Bilmədim, karvanın köçündə nə var,
Bu yolun sonunda, ucunda nə var?
Qırxıncı otağın içində nə var,
Sonuncu otağı barı bağla, get.

Qar altdan boynanan bəyaz çiçəyi,
Qıvrılan, qovrulan o yaz çiçəyi,
Ürəyim sonuncu payız çiçəyi,
Sonuncu çiçəyi barı qoxla, get.

Çətin ki, qayıdam, yadına düşəm,
Göylərin yeddinci qatına düşəm,
Bir dəli həsrətin oduna düşəm,
Sonuncu ümidi barı qoxla get.

Ömrümün ayınnan, ilinnən aldın,
Vətən torpağınnan, gülünnən aldın,
Ellini Tanrının əlinnən aldın,
Gedirsən, Tanrıyla, barı haxla, get.

## GÖRMÜŞƏM

Minillik palıdı, minillik dağı,
Bir günün içində solan görmüşəm.
Buynuzsuz qoyunun, buynuzlu qoçdan,
Bir gün qisasını alan görmüşəm.

“Bu dünya mənimdi” – dedi çoxları,
Yedi quyruq kimi, yedi çoxları,
Zatı qırıqları, əsli yoxları,
Ürəyi, vicdanı talan görmüşəm.

Yetimə yalannan “can” deyənləri,
İçində min dəfə “yan” deyənləri,
“Quran”dan don biçib, don geyənləri,
Təpədən-dırnağa yalan görmüşəm.

Hər ağrı-acıya dözən kəsləri,
Dəmir dabanıyla əzən kəsləri,
Min ildi havalı gəzən kəsləri,
Başaçıq, lüt-üryan, nalan görmüşəm.

Elin harayına yetməyənləri,
Vətən torpağını öpməyənləri,
Tanrıya bəndəlik etməyənləri,
Öz başı hayına qalan görmüşəm.

Ay Elli, görmüşəm ev yıxanları,
Üzə gülə-gülə dev yıxanları.
“Dostunam” söyləyib, əl sıxanları,
Şahmartək arxadan çalan görmüşəm.

## XOŞ GƏLDİN

R.Behrudiyə
Çəkdiklərim cəza imiş,
Qıldıqlarım qəza imiş,
Ümidlərim yaza imiş,
“Ölüm, xoş gəldin, xoş gəldin...”

Boynum belə, buxunum yox,
Gəliş, gediş, axınım yox,
Sənnən özgə yaxınım yox,
“Ölüm, xoş gəldin, xoş gəldin...”

Qapı döyən mənmi idim,
Sirri-xuda sənmi idin?
Saçlarımda dənmi idin?
“Ölüm, xoş gəldin, xoş gəldin...”

Gələnlərin gəlib gedir,
Göz yaşını silib gedir,
Demə, Elli ölüb-gedir,
“Ölüm, xoş gəldin, xoş gəldin...”



## GÖRÜNMÜR

Yoxdu dərdimizi bölməyə kimsə,
Tanrı xəbərsizdi, imam görünmür.
Dünya qarışıqdı başdan-ayağa,
Bu çirkab içində zaman görünmür.

Çoxu ələf yeyir, qarağat yeyir,
Səsini çıxarmır, farağat yeyir.
Arpadan iyrənən eşşək ət yeyir,
Atlar həsrət qalıb, saman görünmür.

Əzəldən belədir nırxı dünyanın,
Dərindən vurulub arxı dünyanın,
Tərsinə fırlanır çərxi dünyanın,
Yaxşılar zillətdə, yaman görünmür.

Ruhum uçub-gedib, bədən can çəkir,
Gələnlər sevinir, gedən can çəkir.
Ayaqlar altında Vətən can çəkir,
Atam ölüb-gedib, anam görünmür.

Deyirlər, filanam, filan kimiyəm,
Gözə kül üfürən yalan kimiyəm,
Dağlayar qoynunda qalan kimiyəm,
Ay Elli, neyləyim, liman görünmür?..

## BAYRAĞIM

Azadam, azadlıq qırmızı rəngim,
Yüksəldi göylərə yenə bayrağım.
Bir kərə yüksəldi başımın üstə,
Çətin ki, göylərdən enə bayrağım.

Yaşılam-islamam, göyəm-ya türkəm,
Babəkəm, Qorqudam, nəyəm, ya Türkəm?
Dünyaya günəşəm, dünyaya görkəm,
Sən səcdə öyrətdin mənə, bayrağım.

Gəzdim Araz boyu sellər uzunu,
Gəzdim Məcnun kimi çöllər uzunu.
Gözlədim yolunu illər uzunu,
Deyirdim, qayıda, dönə bayrağım.

Köhləni yollarda yorub gəlmisən,
Hansı planetdən durub gəlmisən?
Çoxunu gözünnən vurub gəlmisən,
Çıxmısan hamıdan önə, bayrağım.

Qarşımda durmağa qoca dağ gərək,
Yeni zirvələrə bulunmax gərək,
Borcumu verməyə üzüm ağ gərək,
Bir ömür borcluyam sənə, bayrağım.

## BİR GÜN

Bəlkə də, unutdun kimdəsə məni,
İsti göz yaşında, qəmdəcə məni,
Dondur mizrabdaca, simdəcə məni,
Bir qərib mahnıyam, çal məni bir gün.

Kimsəsiz şəhərəm, kəndəm, bəlkə də,
O qara gözlərə bəndəm, bəlkə də,
Bilmirəm, şəkərəm, qəndəm, bəlkə də,
Eylə dillərində bal məni bir gün.

At qızıl sandığa, tarixə göndər,
İstəsən, Parisə, Sürixə göndər,
Köçür qızıl vala, arxivə göndər,
Kövrək yaddaşına sal məni bir gün.

Kürü üzüm keçim, sallara dönüm,
Ay Elli, heyrətdən lallara dönüm,
Qoy həsrət çəkdiyim xallara dönüm,
Eylə yanağında xal məni bir gün.



## İÇİNDƏ

Ömrün payızına, yazına baxmır,
Neyləyim, ürəyim sözümə baxmır.
İlahi, bu gözəl üzümə baxmır,
Arxamca boylanıb-baxar içində.

Nə qədər günah var, yu qovuşanda,
Yerlə göy arası su qovuşanda,
Araz Kürə dönür Suqovuşanda,
Yenə də lillənib axar içində.

Hər gülün, çiçəyin bal harayı var,
Əsmər yanağının xal harayı var,
Zülmət gecələrin lal harayı var,
Haçandı şimşəklər çaxar içimdə.

Səhra dəlisiyəm, mum dənəsiyəm,
Göylərə əl açan tum dənəsiyəm,
Haçandı qovrulan qum dənəsiyəm,
Səhra yağışları yağar içimdə.

Doğan günəş gözəl, gecə göçəldir,
Endirə kədəri heçə, gözəldir,
İlahi, bu gözəl necə gözəldir,
Ellini yandırıb-yaxar içində.

## SAMAN ÇÖPÜ

Tutum əllərinən duraq üz-üzə,
Uyuyum o, qara gözlərindəcə.
Demirəm, dünyanı bağışla mənə,
Bir saman çöpü ver sözlərindəcə.

Beləcə dayanma zaman donanda,
Çiçəklər gül açsın sözü var kimi.
Silkinim kədərdən, çıxım qüssədən,
Təzədən doğulum ilk bahar kimi.

Qoy qalım özümlə yenə baş-başa,
Yenə pıçıldaşan yarpaqlar kimi,
Üzünü döndərsin Vətən göyləri,
Yağılar əlində torpaqlar kimi.

Çaylar üz çevirib axsın tərsinə,
Sevənlər birləşib araya gəlsin,
Sabahlar açılsın şər qarışanda,
Günəşli günlərim haraya gəlsin.

Şəkər gülüşündən çiçək bağlayım,
Dünyanın başına səpim doyunca,
Gözlərin qaradı, gecədən, gülüm,
O qara gözlərdən öpüm doyunca.

Tutum əllərinnən duraq üz-üzə,
Uyuyum o dəniz gözlərindəcə,
Demirəm, dünyanı bağışla mənə,
Bir saman çöpü ver sözlərindəcə.

## GÖZLƏRİN

Bir həsrət, bir kədər, bir qəm əhliyəm,
İllərdi yandırıb-yaxır gözlərin.
Nə qədər desəm də, mənimdir, gülüm,
Uzaqdan boylanıb-baxır gözlərin.

Bir dərin ümmandı, sərin bir bulaq,
Araz bir bulaqdı, Kürüm bir bulaq.
Haçandı içimdə yerin bir bulaq,
Süzülüb ruhuma axır gözlərin.

Kipriyin ucunda nəm dənəsiyəm,
Qətrəyəm, damlayam, qəm dənəsiyəm.
Susuz bir səhrada qum dənəsiyəm,
Yenə narın-narın yağır gözlərin.

Bir əli həsrətdi, bir əli sevda,
Ellini yaşadır gülməli sevda,
Oyadır içimdə bir dəli sevda,
Könlümün evini yıxır gözlərin.

## YAŞIYA BİLMİRƏM

Ruhumu tanrılar oğurlayıbdı,
Ağılla yaşıya bilmirəm daha.
Nənəm ətəyimə noğul tökübdü,
Noğulla yaşıya bilmirəm daha.

Haçandı çöllərdə ağıl gəzirəm,
Ağ atlı bir igid, oğul gəzirəm,
Daha nə bayatı, nağıl gəzirəm,
Nağılla yaşıya bilmirəm daha.

Bu dünya oyundu, nərddi mənimçün,
İlahi sevgidi, dərddi mənimçün,
Bir müdrik qocadı, mərddi mənimçün,
Paxılla yaşıya bilmirəm daha.

Bir gündə düşürəm neçə hallara,
Ay Elli, cavabsız çox suallara,
Əllərim öyrəşib əyri yollara,
"Sağ ol" la yaşıya bilmirəm daha.

## ATAM BALASI

Bir eşqi, bir pulu, bir də ki, dərdi,
Gizdiyə bilməzsən, atam balası.
Sifətin bir isə üzə üz çəkib,
Üzdüyə bilməzsən, atam balası.

Kərəmtək yanmağa köz nə gərəkdi?
Arifə mişarə, söz nə gərəkdi?
Qanmaza nə qmçı, biz nə gərəkdi,
Bizdiyə bilməzsən, atam balası.

Hər ilin öz rəngi, fəsli yoxdusa,
İnsanın öz kökü, nəsli yoxdusa,
Eyibsiz gözlərin əsli yoxdusa,
Söz deyə bilməzsən, atam balası.

Ay Elli, kədərə büküb aparar,
Dərdini çaylara töküb aparar,
Zaman qatarını çəkib aparar,
Gözdüyə bilməzsən, atam balası.

## GƏRƏKDİ ƏLƏYİB SEÇƏLƏR MƏNİ

Açılmır səhərim, uzanır gecəm,
Oyada bilmədi becələr məni.
Bir gündə yüz dəfə ölüb-dirildim,
Öldürdü kimsəsiz gecələr məni.

Yarandım türklərin oğuzlarınnan,
Kim aldı qurdların ağızlarınnan?
Keçdim dəyirmanın boğazlarınnan,
Di gəl ki, saymadı cücələr məni.

Araz şırım açdı sinəmin üstən,
Yüz yerə böldülər bizləri qəsdən.
Tarixə boylandım dönəmin üstən,
Gör necə yandırdı neçələr məni.

Nə ağlım, nə bəxtim, gözüm olmadı,
Tarixə baxmağa üzüm olmadı.
Həmzələr gülüşdü, sözüm olmadı,
İtirdi içimdə küçələr məni.

Elli, açılmadım, bar dənəsiydim,
Büllur çeşmə idim, qar dənəsiydim.
Kəhrəba buğdaydım, nar dənəsiydim,
Gərəkdi ələyib seçələr məni.

## APAR ÖZÜNLƏ

Dəli inadımı sındıran gözəl,
Damarda qanımı donduran gözəl,
Bütün körpüləri yandıran gözəl,
Apar o dərdimnən ölən günləri,
Apar özünlə...

Görmüşəm azını, çoxunu, neynim?
Dünyanın varını, yoxunu, neynim?
Gördüyüm yarımçıq yuxunu neynim?
Apar o dərdimnən ölən günləri,
Apar özünlə...

Dillər topuq vurur, dillər oynayır,
Od sönüb, yerində küllər oynayır.
Havada barmaqlar, əllər oynayır,
Apar o dərdimnən ölən günləri,
Apar özünlə...

Zülmət gecələrin səhər notu var,
Qara gözlərində kədər notu var,
Titrəyən səsində qəhər notu var,
Apar o dərdimnən ölən günləri,
Apar özünlə...

Dərdini danışıb çaylara tök, get,
Sevdalı illərə, aylara tök, get.
Qatla barmağını, saylara tök get,
Apar o dərdimnən ölən günləri,
Apar özünlə...

Qorxulu nağıllar eynimə gəlmir,
Ay Elli, necələr neyimə gəlmir.
Onsuz da ölçülər əynimə gəlmir,
Apar o dərdimnən ölən günləri,
Apar özünlə...



## GƏZİR

İblislə Mələyi səhv salan oğlan,
İllərdi içində “mələklər” gəzir.
Yel vurub yengələr oynayır yenə,
Dəyirman sovulub, küləklər gəzir.

Bilmirəm, sevirik nədən baharı,
Keçib ömrümüzdən gedən baharı.
Gecikən baharı, ötən baharı,
Durnalar arayır, çiçəklər gəzir.

Cəhənnəm odu var, oyun içində,
Verilən qismətin, payın içində,
İldırım oynayır göyün içində,
O qara gözlərdə şimşəklər gəzir.

Söz atdım, söz adlı söz tutanım yox,
Bircə yol əl açıb köz tutanım yox,
Ölən sevgimizə yas tutanım yox,
Ruhum səmalarda fələklər gəzir.

Cığırlar zirvədən burulub gəlir,
Ay Elli, bulaqlar durulub gəlir,
Bələdçi durnalar vurulub gəlir,
Göylərin üzündə lələklər gəzir.

## HAYIF, HAYIF

Gəldi bir sevdanın payız günləri,
Qış döydü qapını, yaz, hayıf, hayıf.
Hər sözə yüz dəfə naxış vurmuşam,
Sən demə, ucuzmuş söz, hayıf, hayıf.

Kökləndim bir eşqin qəmləri üstə,
Gah zildə, gah bəmdə, simlərin üstə.
Çaldı "Kərəmi"ni kimlərin üstə,
Mizrab, hayıf, hayıf, söz, hayıf, hayıf.

Ucaldım ağlımın dayaqlarında,
Hər sözün çaları, boyaqlarında.
Kül oldum çoxunun ayaqlarında,
Küləklər apardı, toz, hayıf, hayıf.

Unutdum ağlımı mən də yüz dəfə,
Od vurub dayandı gendə yüz dəfə,
Ellini yandırdı gündə yüz dəfə,
Bircə yol demədi, qız hayıf, hayıf.

## QALMAYIB

Silmişəm illərin daş yaddaşını,
Silinib yaddaşım, yadım qalmayıb.
Quruca nişanə qalıbdır mənə,
Gedib o ünvanım, adım qalmayıb.

Udub-uduzmuşam söz oyununda,
Taleyin, Tanrının öz oyununda.
Dünyanın beş arşın bez oyununda,
Gedib doğmalarım, yadım qalmayıb.

İtirə-itirə gəlmişəm daha,
Yüz yol doğulmuşam, ölmüşəm daha,
Ömrümdən illəri silmişəm daha,
Sıxıblar suyumu dadım qalmayıb.

Mənə "Ağ söylədi", "atlım" söylədi,
Necə xoşbəxt idim, "mutlum" söylədi,
"Şirinim, şəkərim, dadlım" söylədi,
Matım quruyubdu, mutum qalmayıb.

Ay Elli, dost küsüb, el üz döndərib,
Şanələr qırılıb, tel üz döndərib,
Çiçəklər inciyib, gül üz döndərib,
Çəmənlər quruyub, otum qalmayıb.

## QAÇIRAM ATAM BALASI

Göylər atam, torpaq anam,
Elə bilirdim, insanam...
Qəm üyüdən dəyirmanam,
Naçaram, atambalası...

Gecələr yağıb sinəmə,
Dərd dəniz, çıxıb sinəmə,
Körpətək sıxıb sinəmə,
Qaçıram, atambalası...

Gəldim naşı, getdim naşı,
Var sinəmdə ocaq daşı,
Yad budaqda ötdüm naşı,
Uçuram, atambalası...

Heyrət dolu “kaş” götürüb,
Bahar sevdim, qış götürüb,
Bu dünyadan baş götürüb,
Qaçıram, atambalası...

Gəlməmişəm öz xoşumla,
Elli, gedim öz başımla,
Nə göyərdim göz yaşımla,
Biçirəm, atambalası...

## ÜZÜ GÜNBATANA GEDİR BU QATAR

Üzü günbatana gedir bu qatar,
İki sərnişinnən biri düşübdü.
Özünü atıbdı pəncərələrdən,
Bəlkə də, ölməyib, diri düşübdü.

Son mənzil haradır, özü də bilmir,
Şütüyür, bilirəm, dönüşü yoxdur.
Çıxır qarşısına dağlar, dərələr,
Raharca yolu yox, enişi yoxdur.

Dəmir qollarını açıb bu qatar,
İtirib zamanı harda bilinmir,
Aparır özüylə kədər, qəm yükü,
Nəyim var, kimim var burda bilinmir.

Əriyir içimdə həsrət yükləri,
Ölür o sonuncu ümidlər daha.
Solub ömrümüzün  payız gülləri,
Ağlamır səhrada buludlar daha.

Üzü günbatana gedir bu qatar,
Açılır arxada bir-bir vaqonlar,
Yumub gözlərini qoca bələdçi,
Tökülür birbəbir əsir vaqonlar.

Unudub illərin yorğunluğunu,
Buraxıb baharı, yazı arxada.
Gedir cəhənnəmin içinnən keçib,
Şütüyür hələ də gözü arxada.

Üzü günbatana gedir bu qatar,
Sürünür, ardınca sədaqət gedir.
Birinci vaqonda bir dəli nifrət,
Sonuncu vaqonda məhəbbət gedir.



## ZİRVƏLƏRDƏ ŞƏHİD OLUB BU SEVDA

Zirvələrdə şəhid olub bu sevda,
Aman Allah, o zirvədə qara bax.
Haçan yanıb, külə dönüb bilmirəm,
Qara gözlər, qara tale, qara bəxt?

Unutmadıq yaxşı günü, pis günü,
Kim sevər ki, taleyinnən küskünü?
Ürəyimin Vətən dərdi, nisgili,
Göyçə dərdi, Təbriz dərdi, Qarabağ...

Gözlərimin yağı gedib, yağ almır,
Qara geyib, göy bağlayır, ağ almır,
Dərd üzülür, dərd köhnəlir, sağalmır,
Gör haçandır, qaysaq tutumur yara, bax.

Bu dünyanı dəyişdirir, zor qurur,
İpək qurdu öz əliylə gor qurur,
Sevgi ilə yuva qurur, tor qurur,
Hörümçəyin o qurduğu tora bax.

Yollar uzun, çəkəmmirəm gözümü,
Elli, neyçün deyəmmirəm sözümü?
Bulud tutub al günəşin üzünü,
Dəli könül, bir arala ora bax.

## AY ALLAH, ALLAH

Hayannan gəlibdi bu dağ adam,
Öldürür bizləri, ay Allah, Allah.
Qurtar bu zalımın əlinnən bizi,
Axı belə olmaz, ay Allah, Allah.

Həsrətik bir təmiz adlara, neyçin?
Ağzımız bir şirin dadlara neyçin?
Atmısan bizləri adlara neyçin?
Haçandır aparır çay, Allah, Allah.

Dünyaya gəlmişik cəmi min ildi,
Sönüb ümidlərin şəmi min ildi,
Biz şələ tutmuşuq qəmi min ildi,
Açılsın başımız qoy, Allah, Allah.

Verəydin yaxamı adam əlinə,
Dərd görüb, dərd çəkən, dadan əlinə,
Vermisən dərdbilməz, nadan əlinə,
Tutacaq bizlərə toy, Allah, Allah.

Hər yoldan ötənlə, cəng eləyəndi,
Başımı, beynimi dəng eləyəndi,
Min ildi bizləri süng eləyəndi,
Bəs haçan olarıq şay, Allah, Allah.

## PAYIMSAN MƏNİM

Yolumu, izimi itirən gözəl,
Səbrimi, dözümü itirən gözəl.
İçimdə özünü bitirən gözəl,
Tale qismətimsən, payımsan mənim.

Gəlmisən ömrümə yaraşıq kimi,
Tanrı möcüzəsi, bir işıq kimi,
Sarmısan ruhumu sarmaşıq kimi,
Uca dərgahımsan, göyümsən mənim.

Bir dünya sevdasan, əda deyilsən,
Ruhumun özüsən, səda deyilsən,
Ömrümə naxışsan, xəta deyilsən,
Bəxtəvər günlərim, ayımsan mənim.

Bir qərib yolçuyam, qədər yoldaşım,
Bu susuz səhralar, çöllər yoldaşım,
Gülüm, gecələrdə kədər yoldaşım,
Doğulan günəşim, ayımsan mənim.

Ay Elli, anasız böyüdü eşqim,
Kimsədən almadı öyüdü eşqim,
Özüm də bilmirəm, nəyidi eşqim,
Özüm də bilmirəm, nəyimsən mənim.

## ÖMÜR QARDAŞ

Ömür qardaş, gəvələmə illəri,
Naxış vurub həvələmə illəri.
Saralıbdı ömrümüzün gülləri,
Gələn mənəm, gedən sənsən, ötən sən.

Zaman-zaman söz oyunum, söz adım,
Söz qılıncım, söz tüfəngim, söz atım.
Unutmuşam, yada düşmür öz adım,
Mən piyada, sən atlısan, nədən sən?

Yorulmadım, səni yordum, deyəsən,
Ümidləri daşa vurdum, deyəsən.
Xəyallarda dünya qurdum, deyəsən,
Qürbətdəyəm, içimdəki Vətən sən.

Fərqi nədir, illər gəlir, ya gedir,
Tanrı alır verdiyini ta gedir.
Ünvanı yox, köhlən atım ha gedir,
Ruhum sənsən, canım sənsən, bədən sən.

Elli, küsüb ürək mənnən gen gəzir,
Ömür quşum saçlarımda dən gəzir,
Araz dərdim çay üstündə çən gəzir,
İçimizdə çiçək açıb bitən sən.

## DE MƏNNƏN AŞAĞI KİM VAR

Bu yerdə ən axır sözü keçən mən,
Qapıdan ən axır özü keçən mən,
Bütün sərhədləri, düzü, keçən mən,
De, mənnən aşağı kim var, İlahi?

Könlümü o qərib göylərə verdim,
Ağlı seyrəklərə, keylərə verdim.
Bir sınıq mizraba, neylərə verdim,
De, mənnən aşağı kim var, İlahi?

İynənin ucunnan, gözdən keçmişəm,
Sözdən ələnmişəm, sözdən keçmişəm,
Çoxu itirmişəm, azdan keçmişəm,
De, mənnən aşağı kim var, İlahi?

Səsimə səs vermir bir kərə, neynim,
Atılıb-düşürəm, boş yerə neynim?
Canımnan can alan, can verə, neynim,
De, mənnən aşağı kim var, İlahi?

Göylərə açılan əl, ətək mənəm,
Dalğalar qoynunda bir lələk mənəm.
Hamıdan aşağı elə tək mənəm,
De, mənnən aşağı kim var, İlahi?

## QARDAŞIM

Deyirlər qozbeli qəbir düzəldər,
Düzəlməz heç zaman beli, qardaşım.
Düzələ bilərmi, heç ələyrilər,
Yüz yerdən kəsilə əli, qardaşım.

Bağlasan dizini qoca nərin də,
Çatacaq hayına göyün, yerin də.
Canavar xisləti varsa birində,
Yüz yalvar, yüz yaxar, ləli qardaşım.

Həqiqət Tanrıdı güclərin üstə,
Bəxtimiz xoşbəxtdir bürclərin üstə,
Tanrı borc veribdi, borcların üstə,
Kəsməz o verdiyi əli, qardaşım.

Yalançı sevginin bir üzü yoxdu,
Bir gözü varsa da, bir gözü yoxdu.
Ay Elli, nadanın düz sözü yoxdu,
Doğrunu söyləyər dəli, qardaşım.

## GİLEY

Ömür qardaş, yarı yolda qalmışam,
Daha çəkmir arxasınca dizlərim.
Ağlım kəsmir, huşum çaşdı, neyləyim,
Tutulubdu ürəyimin gözləri?..

Yalan çıxıb qurşağacan, dizəcən,
Oğul gərək, hər əzaba dözəsən.
Axı kimdən inciyəsən, küsəsən?
Yarı yolda qoyub getdi bizləri.

Kabab yanıb, qor dünyanın ağası,
Yağı çıxan şor dünyanın ağası,
Zaman-zaman zor dünyanın ağası,
Qana dönüb, qan tutubdu gözləri.

Daşa dönən, daş ürəyin daşıyam,
Dünya qumar, mən uduzan, naşıyam.
Söz qurbanlıq, mən kəsilən başıyam,
Bıçaq altda sürüyürəm sözləri.

Boş ürəkdə söz gəzirəm, tapılmır,
Bir cüt qara göz gəzirəm, tapılmır.
Bu səhrada köz gəzirəm, tapılmır,
Ocaq sönüb, üfürürəm közləri...

## GÜLÜM

Həqiqətin bir üzü var,
Yalan mindi, yalan, gülüm.
Tanımadın bir yol məni,
Şəkər mənəm, balam, gülüm.

Göz yaşını yay ovcuma,
Kədərini say ovcuma,
Dərdlərini qoy ovcuma,
Gərək bir-bir alam, gülüm.

“Uf “demədən daşa çəkdin,
Gah ayağa, başa çəkdin.
Gündə yüz yol şişə çəkdin,
Sal qayayam, lalam, gülüm.

Öz yeri var qınağın da,
Hər əzabın, sınağın da.
Qopar məni, yanağında
Bir cüt qoşa xalam, gülüm.

Elli, sevda sirdi, keçər,
Ləl, cavahir, dürdü, keçər.
Heç qəm yemə, birdi, keçər,
Sal ruhuma talan, gülüm.

## DƏYMƏZ

Ağlımı, hissimi belə zorlama,
Mən ürfan əhliyəm, belə korlama.
Başımın üstündə qılınc fırlama,
Onsuz da vurduğun başlara dəyməz.

Bezmişəm Tanrının naxışlarınnan,
Ömrün dolayıları, yoxuşlarınnan.
Qar yağır çoxunun baxışlarınnan,
Qara payızlara, qışlara dəyməz.

Məni mənnən alıb, sənə veribdi,
Qaytarıb üstümə, yenə veribdi.
Qara saçlarımda dənə veribdi,
O qara gözlərə, qaşlara dəyməz.

Kimlərin atdığı kimnən keçibdi,
Bir dəli mizrabdan, sinəmnən keçibdi.
Ay Elli, qəm yemə, qəmnən keçibdi,
Gözlərdə oynayan yaşlara dəyməz.

## YOXMUŞ

Tənha qu quşuyam bu göy üzündə,
Bir naşı ovçunun hədəfiyəm mən.
Bəlkə bir üzüyün qiymətli qaşı,
Bəlkə də, ən xırda sədəfiyəm mən.

Məni üyütdülər mənnən içəri,
Məni mənnən alıb aparan oldu.
Çiçəyim qurudu, bara qalmadı,
Yüz dəfə kökümnən qoparan oldu.

Anlaya bilmədim köküm haradadır,
Yarpağım töküldü yel qanadında.
İstəyim daşlara dərdi birəbir,
Töküldü kallarım il qanadında.

Yeridə bilmədim sözümü neynim?
Susmuşam, susmağın yeri deyilmiş,
Səbrim dağlar qədər, dənizlər qədər,
Yüz yerə yozmağın yeri deyilmiş.

Qorxaqlıq içində at oynadırmış,
Sözümün tük qədər kəsəri yoxmuş,
Sözlə oynamışam, od ilə yox, yox,
Ellinin özünnən xəbəri yoxmuş...

## NƏ BAXIRSAN

Nə baxırsan gözlərinin rənginə,
Bircə tikə qarası yox, bəlkə də.
Sıxma belə bulud kimi yalannan,
Gözlərinin qorası yox, bələ də.

Bilməmişik hər addımda tələ var,
Yaşamağa bir az dəyər, hələ var.
Kərəm gedib, Əsli yoxdu, Lələ var,
Bizim ilə arası yox, bəlkə də.

İtirmişik, itdiyimiz tapılmır,
Doğranmışıq, kötüyümüz tapılmır.
İçdiyimiz, yediyimiz tapılmır,
Yada düşmür, orası yox, bəlkə də.

Elli, fürsət əlimizdə quşdu ki,
Zaman donub, heyrət mənnən keçdi ki,
Bir ox atdı, ürəyimi deşdi ki,
Keçib getdi, yarası yox, bəlkə də.

## DEMƏ

Eninə, boyuna qarışlamışam,
Dünya fındıq boyda kiçilib, demə.
Nə qədər qaçıram əlinnən atam,
Bu tale boynuma biçilib demə.

Yol azıb, yüz dəfə itib keçmişəm,
Bəlkə də, dünyadan yatıb-keçmişəm,
Yummuşam gözümü, ötüb keçmişəm,
Bəxtimiz yüz dəfə açılıb demə.

Görmüşəm sonu yox uğurları da,
Gündə xəmir yeyən fağırları da.
Keçmişəm keçilməz cığırları da,
Bu yol neçə dəfə keçilib demə.

Hər şeyin ucuzu düşüb bəxtimə,
Tanrının qayçısı düşüb bəxtimə,
Taleyin acısı düşüb bəxtimə,
Şirini, şərbəti içilib demə.

Heç nədən xoflanıb hoyalanan Elli,
Sağına, soluna boynanan Elli,
Neçə yol məzara quyulanan Elli,
Məzərın yüz dəfə uçulub demə.

## DÜNYAM

Qələmim görəni sözüm görmədi,
Çətin yoxuşları dizim görmədi.
Burnumun ucunu gözüm görmədi,
Sən niyə yaratdın kor məni, dünyam?!

Başıma dəyəni zopa bilmədim,
Qurtara bilmədim, qopa bilmədim.
Aradım, axtardım tapa bilmədim,
Kimə tuş eylədin gör məni, dünyam.

Havam çatışmadı, havam olmadı,
Atam itkin düşdü, babam olmadı.
Ömür başa çatdı, yuvam olmadı,
Çətin ki, götürə gor məni, dünyam.

Tarixin qoynunda danılmaz qala,
Babək qalasıyam, yenilməz qala.
Əyilməz vüqarım, alınmaz qala,
Çökdürə bilmədi zor məni, dünyam.

Gör neçə ünvandan, addan çıxmışam,
Elli, yadlaşmışam, yaddan çıxmışam.
Alova düşmüşəm, oddan çıxmışam,
Yandıra bilmədi qor məni, dünyam.

## İÇİMDƏ BİR DƏLİ QAR HAVASI VAR

İçimdə bir dəli qar havası var,
Yağır yavaş-yavaş saçıma qar da.
Gəlmişəm sonuna əliboş, atam,
Qalıbdı arxada o ilk bahar da.

Əlim ətəyinnən uzun gəlmişəm,
Qədrini bilmədim, bilən deyiləm.
Gedib qayıtmağım çətin məsələ,
Bir də bu dünyaya gələn deyiləm.

Yanıq körpüləri qoyub gəlmişəm,
Uçurdum bəndləri, bərəni bir-bir.
Gələn toy-bayramla gəlir dünyaya,
Biz yola salırıq hərəni bir cür.

Cibimdə siçanlar oynayır, atam,
Oğruya, quldura, cibgirə çatmır.
Oynayır göylərdə ruhum haçandır,
Ələyim ələnir, xəlbirə çatmır.

Gecələr qapımı küləklər döyür,
Neyləyim, gedəni, gələni yoxdu.
İkinin üstünə bir gələ bilməm,
Üçün də qalığı, böləni yoxdu.

Təktənha qalmışam içimdə yalqız,
Qalmışam özümlə baş-başa, neynim?
Elə adiləşib ölümlər, atam.
Gedirəm üstünə birbaşa, neynim?

## MƏNİM

Qara gözlərində eşqim, həsrətim,
Sevən ürəyində yuvam var mənim.
Yaman darıxmışam səninçün, gülüm,
Sən adlı elim var, obam var mənim.

Günümsən, ayımsan, səadətimsən,
Əvvəlim, axırım, nəhayətimsən.
Sevən ürəyimsən, məhəbbətimsən,
Hələ bu taleylə davam var mənim.

Xəyal zirvələr var, xəyal səhralar,
Həm cavab səhralar, sual səhralar.
Ayağım altında bu lal səhralar,
Məcnun harayım var, nəvam var mənim.

Ellitək heyrətdən donub gəlmisən,
Yandırıb-yaxmısan, yanıb gəlmisən.
Göylərdən mənimçün enib gəlmisən,
Bahar çiçəyim var, havam var mənim.



## DOĞRU ÇİÇƏKLƏYƏ

Nə qədər kəsmirdi ağlım hər şeyi,
Deyirdim başıma qar yağa bir gün.
Bir ümid göyərə, bir ümid aça,
Göylərdən başıma var yağa bir gün.

Sözü ha fırladan qərəzdilər var,
Dərdləri üyüdən mərəzdilər var.
Nə qədər səhv çəkən tərəzilər var,
Göydən namus yağa, ar yağa bir gün.

Təpədən-dırnağa hamarlanırlar,
Yüz dəfə hallanıb tumarlanırlar.
İsti saraylarda xumarlanırlar,
Zalımın yerinə qor yağa bir gün.

Doğru söz deməyə üzü, haqqı yox,
Toxun xəbəri yox, acın bəxti yox,
Qızıl alması yox, qızıl taxtı yox,
Nə ola göylərdən şor yağa bir gün.

Ay Elli, cücərir axmaq yalanlar,
Döyənək yalanlar, toxmaq yalanlar.
Dayanıb üzümə bu ağ yalanlar,
Doğru çiçəkləyə, bar yağa bir gün.

## DÜNYAM

Nə əldən qoyuram, nə keçə billəm,
Nə ayıra billəm, nə seçə billəm.
Gör necə uçulub gör necə bilməm,
Mənim sən ünvanlı, sən adlı dünyam.

Günəş başım üstə layla çalardı,
Ulduz da çalardı, ay da çalardı.
Hər gecə sevgiylə yola salardı,
Mənim sən ünvanlı, sən adlı dünyam.

İtirib ümidin son işığını,
Zülmət gecələrin dan işığını,
Tutub yol gedirdi şam işığını,
Mənim sən ünvanlı, sən adlı dünyam.

Özünü odlara vurub keçibdi,
Hər ağrı-acını görüb keçibdi,
Keçilməz sədləri yarıb keçibdi,
Mənim sən ünvanlı, sən adlı dünyam.

Elli, yaşamağa ömür vermədi,
Yanıb külə döndüm kömür vermədi.
Xəmirim küt getdi, xəmir vermədi,
Mənim sən ünvanlı, sən adlı dünyam.

## ÜTDÜLƏR

Çöp altda dəyirman quran kişilər,
Hiylə üyütdülər, dərd üyütdülər.
Mərdi qova-qova namərd eyləyib,
Ələkdən keçirib mərd üyütdülər.

Çəkilmir tətikdən iblis barmağı.
Öldürür budaqda yaşıl yarpağı.
Bir-bir, verə-verə gəlib torpağı,
Yuva üyütdülər, yurd üyütdülər.

Gözlər haqq yoluna dikilib demə,
Çoxları arına bükülüb demə,
Tülkülər kölgəyə çəkilib demə,
Pələng üyütdülər, qurd üyütdülər.

Özünün adı yox, xisləti yoxdu,
Ay Elli, namusu, qeyrəti yoxdu.
Vallah, beləsinin milləti yoxdu,
Fərqi nə, ya ləzgi, kürd üyütdülər.



## ŞAHA NEYNİM

Gözlərinə şeh qonubsa,
Al yanaqda şehə neynim?
Səni mənnən alıb-gedən,
Yad küləyə, mehə neynim?

Dumannan, çənnən keçirsə,
Cığırlar gennən keçirsə,
Mənimki mənnən keçirsə,
Daha neynim, daha neynim?

Yaramadım xeyir-şərə,
Ömrümü verdim yellərə,
Tutulmadım bircə kərə
Baha, neynim, baha, neynim?

İçimnən bir od qoparıb,
Gələn, gedən yad qoparıb.
Sinəmdə fəryad qoparıb,
Aha neynim, aha neynim?

Elli, bu yol deyil asan,
Belə yazıb tale yazan.
Öz içində özün asan,
Şaha, neynim, şaha neynim?

## ELƏ BİLDİM SAVALANIM

*Savalan dağına*

Ruhum Tanrı otağında,
Başım göylərin tağında.
Gözüm Vətən sorağında;
Səni görüb havalandım,
Elə bildim, Savalandım...

Buludlarım dolub-getdi,
Araz məni alıb-getdi.
Arzularım solub getdi,
Zaman-zaman qovalandım,
Elə bildim, Savalandım...

Ər igidin nəsli kimi,
Qılıncımız kəsdi kimi?
Selcan kimi, Əsli kimi.
Yar yanında yuvalandım,
Elə bildim, Savalandım...

Qan dənizim düzə çatdı,
Gücüm təkcə sözə çatdı,
Hər tikəmiz yüzə çatdı,
Bölük-bölük obalandım,
Elə bildim, Savalandım...

Elli, daha ərinmərəm,
Ayaqlara sürünmərəm,
Yorğanıma bürünmərəm,
Şimşəklərdən qov alandım,
Elə bildim, Savalandım...

## AĞLAYIR

Məni payızlara, qışlara salma,
Nadan ürəklərə, başlara salma.
Allahım, dağlara, daşlara salma,
İçimdə bir qərib dözüm ağlayır.

Ha sığal çəkdilər ütülənmədim,
Daşlara çəkdilər itilənmədim.
Çəkdilər sınağa kötülənmədim,
İçimdə bir qərib dözüm ağlayır.

Məni qətrə-qətrə damızdırdılar,
Sevgi vermədilər, dadızdırdılar.
Saldılar kələyə, uduzdurdular,
İçimdə bir qərib dözüm ağlayır.

Quruca şələyə döndərdin məni,
Adicə ələyə döndərdin məni,
Lap adi dəliyə döndərdin məni,
İçimdə bir qərib dözüm ağlayır.

Elli, şişə taxıb yandırıbdılar,
Heyrətə salıblar, dondurubdular.
Məni dönə-dönə sındırıbdılar,
İçimdə bir qərib dözüm ağlayır.

## BİLMƏDİM

Əlli də yaşadım, yüz də, doymadım,
Dünyanın yanında bu da yaşdımı?
Udub-uduzmağım bərabər oldu,
Gəlirim, çıxarım başabaşdımı?

Cığıra düşmüşəm, çıxara bilmir,
Ha tufan qaldırır, qopara bilmir.
Məni arxasınca apara bilmir,
Bu da ağıldımı, bu da başdımı?

Çəkir, yalan çəkir qərəzi çəkən,
Dərdi, dərmanı da, mərəzi çəkən.
Bu daş, bu tərəzi, tərəzi çəkən
Bilmədim, dəlimi, ağlıçaşdımı?

Ay Elli, əlləşir ilan göyünən,
Gözümün önündə yalan göyünən.
Sinəsi altında yalan döyünən,
Həqiqi ürəkmi, qara daşdımı?

## DEMƏ, ARAZ BOYDA DƏRDİM VAR MƏNİM

Demə, Araz boyda dərdim var mənim,
Qaysaq bağlayacaq, lilllənəcəkdir.
Tumurcuq xəyallar, şirin yuxular,
Bir gün çiçək açıb güllənəcəkdir.

Bir daş qoyulacaq daşımın üstə,
Bir bahar gələcək yaşımın üstə,
Buludlar hönkürüb başımın üstə
Damlalar böyüyüb sellənəcəkdir.

Araz dəli kimi axıb içimnən,
Hər bəndi, bərəni yıxıb içimnən.
Qeyrət qılınc kimi çıxıb içimnən
Sıyrılıb, dil açıb, dillənəcəkdir.

Qaldı Şuşamızda Xarı bülbülü,
Üşütməz Vətənin qarı bülbülü.
Ay Elli, asmışam sarı bülbülü,
Min ildə içim də yellənəcəkdir.

***Fevral, 2014***

## AY ALLAH

Ay Allah, belə də gözəl olarmı,
Öldürür qaşıyla, gözüylə məni.
Salıbdı yolumu gedərgəlməzə,
Sürüyür ardınca özüylə məni.

Üzüyün qaşında lələ bənzəyir,
Yel vurub titrəyən tülə bənzəyir.
Bülbülə naz satan gülə bənzəyir,
Öldürür haçandı nazıyla məni.

Gözləri nərgizdi, yanağı lalə,
Küsüb-barışmağı, qınağı lalə,
Könlümün ən əziz qonağı lalə,
Çəkir arxasınca iziylə məni.

Elimin, obamın sorağı gözəl,
Ellinin açılan varağı gözəl.
Pərvanə eşqimin çırağı gözəl
Öldürür oduyla, közüylə məni.

## ЙАХЫН ЭЯЛ, ГЯЛЯМИМ

Йахын эял, гялямим, нийя кцсмцсян,
Нийя цз чевириб мяндян эедирсян?
Цзц дюнцк кими, гялби йад кими
Нийя цз чевириб эендян эедирсян?

Синям гярибсяйиб масадан ютрц?
Щачанды ичимдян гара ган кечир.
Чайлар мяъраcыны дяйишиб йеня,
Сярсяри кцлякляр арадан кечир.

Йахын эял, гялямим, нийя кцсмцсян,
Билирсян кимсядян умаъаьым йох.
Танры гарьышына кечиб, бялкя дя,
Елим йох, обам йох, од-оъаьым йох.

Сян нийя кцсмцсян мяндян билмирям,
Ахы сон цмидим, сон щарайымдын…
Сян дя цз чевириб мяндян эедирсян,
Ахы хан чинарым, хан сарайымдын…

Бялкя бир эцнащын сащибийям мян,
Ялимдян бир хята чыхыб бялкя дя?!
Бу карван, бу гатар дцзялиб йола,
Йатмышам, ойаьам, мяни силкяля,
Йахын эял, гялямим, нийя кцсмцсян?..

## SARI QƏM

Bir zirvədə qərar tutub o gözəl,
O zirvənin dumanı qəm, qarı qəm.
İllər keçir, yarılanır ömür-gün,
Bir sevda var, yarı sevinc, yarı qəm.

Cücərmədi, ha çilədim torpağa,
Hopur ruhum misra-misra varağa.
Çıxa bilmir içimizdən qırağa,
Ağ ayrılıq, sarı nifrət, sarı qəm.

Ömür azdır, illərimiz çatmadı,
Ha uzatdıq, əllərimiz çatmadı,
Taleyimiz axarına yatmadı,
Bu dünyanın işığı qəm, nuru qəm.

Gözlər qara, kiprik qara, qaş qara,
Al yanaqda cığır salan yaş qara.
Ocaq yanıb, bu çəməndə daş qara,
Közü qəmdi, külü qəmdi, qoru qəm.

Elli, yaman səbirsizdi bu gözəl,
Kədər yağır, çətirsizdi bu gözəl,
Bu dünyadan xəbərsizdi bu gözəl,
Çiçək qəmdi, balı qəmdi, arı qəm.

## NİYƏ GƏLMƏDİN

Gəldi bahar fəsli açıldı güllər,
Ay gülüm, çiçəyim, niyə gəlmədin?
Ürəyim gəlmədi üzəm laləni,
Ay sevən ürəyim, niyə gəlmədin?

Zaman dayanmadı, tələsdi-keçdi,
Elə bil üstümdən yel əsdi-keçdi.
Titrədi yanaqda şeh əsdi-keçdi,
Ürəyi kövrəyim, niyə gəlmədin?

Unutdun, bəlkə də, var olduğumu,
Uca zirvələrdə qar olduğumu,
Dünyanın başıma dar olduğunu,
Hər zaman gərəyim, niyə gəlmədin?

Ruhumu üşütdü, qar-qara qaldı,
Payız qara qaldı, yaz qara qaldı.
İnciyən çiçəklər bahara qaldı,
Gözəlim, göyçəyim, niyə gəlmədin?

Bəlkə də, Ellidən bezib-getmisən,
Əlini bir yolluq üzüb-getmisən,
Dəli ceyran kimi küsüb getmisən,
Hər şeydən ürkəyim, niyə gəlmədin?

## BİLMİRƏM

Saçlarıma vaxtsız düşən dəniydin,
Gözlərimə pərdə çəkən çəniydin.
Ürəyimdə kədəriydin, qəmiydin,
Niyə sevdim, niyə səni, bilmirəm?!

Ümidləri dənə-dənə öldürüb,
Zirvələrdən enə-enə öldürüb,
Həsərt məni dönə-dönə öldürüb,
Niyə sevdim, niyə səni, bilmirəm?!

Nə zamandı neyim qırıq qalıbdı,
Dəmir əsa, bir də çarıq qalıbdi,
Bir sevgi var, boynu buruq qalıbdı,
Niyə sevdim, niyə səni, bilmirəm?!

Bahar gedib, payız qalıb, qış gəlir,
O göylərdən üstümüzə daş gəlir.
Heç bilmədim, nəyi mənə xoş gəlir,
Niyə sevdim, niyə səni, bilmirəm?!

Bəxt ulduzum, niyə axıb getmisən,
Ətəyini niyə yığıb getmisən?
Sən Ellini şişə taxıb getmisən,
Niyə sevdim, niyə səni, bilmirəm?!

## TANRI, MƏNƏ SƏBİR VER

Sevda adlı verdiyin quruca həvəsimdir,
Ömrün zaman içində bircə an, bir kəsimdir.
Mən ömür istəmirəm, verdiklərin bəsimdir,
Tanrı, mənə səbr ver, başqa şey istəmirəm.

Bu daşa, bu torpağa, insanlara vuruldum,
Sevdim lap Məcnun kimi nə usandım, yoruldum.
Bulanmadım bir kərə, bulaq kimi duruldum,
Tanrı, mənə səbr ver, başqa şey istəmirəm.

İllər boyu qəflətdə yatdığım sənə dəydi,
Bəlkə də qaranlığa atdığım sənə dəydi,
Qayıtdı öz üstümə, mənimki mənə dəydi,
Tanrı, mənə səbr ver, başqa şey istəmirəm.

Günahlarım nə imiş, başıma çomaq vurdun,
Taleyimi sındırıb, yerinə yamaq vurdun,
Ürəyimdə sözlərə, dilimə qadax vurdun,
Tanrı, mənə səbr ver, başqa şey istəmirəm.

Düşünüb-daşınmağım, anacağım yox daha,
Yandıranım, yaxanım, yanacağım yox daha.
Elli, vallah kimsədən umacağım yox daha,
Tanrı, mənə səbr ver, başqa şey istəmirəm.

## GÖZLƏRİNDƏ KƏDƏRƏMMİ

Ürəyində həyat eşqi,
Gözlərində kədərəmmi?
Taleyində əbədiyəm,
Yoxsa gəldi-gedərəmmi?

Bir çiçəksən, gülüm, kövrək,
Vaxt düşmənim, ölüm kövrək.
Bir dünyasan, həlim, kövrək,
Qara daşdan betərəmmi?

Saçlarının qarı mənəm,
Gözlərinin nuru mənəm,
Yasdığının qoru mənəm,
Açılmayan səhərəmmi?

Taleyinə naxış salan,
Duman, çiskin, yağış salan.
Qismətinə yoxuş salan,
Tanrı yazan qədərəmmi?

Vətənsizəm, yox Vətənim,
Göylər yurdum, hax Vətənim.
Nə gələn var, nə gedənim,
Bir kimsəsiz şəhərəmmi?

## RƏQƏMLƏRİN DİLİ

Yaradandı xəq eliyən, o Xaliq,
Özü birdi, sözü birdi, sirri bir.
Nə azalmır, nə çoxalmır, nə artmır,
Ha vursan da bir eliyər biri-bir.

Bir üstünə bir gəlirik – ikimiz,
Sevinc birdi, kədər birdi – yükümüz.
Çüt budağıq bir göyərib kökümüz,
Torpağı bir, havası bir, yeri bir.

Yollar uzun, tükənibdi gücümüz,
Karvan gedir, ayrı düşüb köçümüz.
İki üstə bir gəlirik üçümüz,
Üçümüzün xeyri bir, şəri bir.

Bu dünyanın şərqi sənsən, qərbi mən,
Şimal, cənub qütbü sənsən, fərqi mən.
O həsrətdi, üçü sənsən, dördü mən,
Ay insafsız yana-yana əri bir.

Ürəyimiz qərib sərçə deyil ki,
İstəyimiz dəli Kürçə deyil ki,
Beş barmağın beşi bircə deyil ki,
Nə yaxşı ki, dərdi birdi, səri bir.

Altı-cənnət, göy qübbəsi yeddidi,
Səkkizguşə Türkçülüyün həddidi.
Göy qurşağı gözəlliyin səddidi,
Addım-addım düz üstünə yeri bir.

“Gözəllik on, doqquzu don” deyiblər,
Əvvəl axır, bəlkə də son deyiblər.
Bu Elliyə hansı fason deyiblər,
Ya üz döndər, ya üz çevir bəri bir.



## BİLMƏDİM

Ay məni göylərə qaldıran gözəl,
Qara gözlərinnən doya bilmədim.
Açdım ürəyimin qapılarını,
Bu eşqi bir yana qoya bilmədim.

Bir qızıl sırğayam qulaqlarında,
Bir dəli sevdayam yanaqlarında,
Təbəssüm gül açıb dodağlarında,
Verdiyi qəmləri saya bilmədim.

Olundu sinəmə sürgün ahlarım,
Tutacaq özümü bir gün ahlarım.
Məcnun harayıdı bu günahlarım,
Nə qədər çalışdım yuya bilmədim.

Bağlı qapılar var, girişdən gözəl,
Hicran var, hər dürlü görüşdən gözəl,
Hər sözün, söhbətin, sərişdən gözəl,
Neyləyim ruhuma yaya bilmədim.

Mən səni gizlədim söz qabığında,
Sinəmin altında – köz qabığında,
Ellini yandırdın göz qabığında,
Oyula bilmədim, oya bilmədim.

## GƏL ELƏ DÜŞÜNMƏ, NAŞIYAM, GÖZƏL

Bezmişəm taleyin gedişlərindən,
Gəl elə düşünmə naşıyam, gözəl.
Özünnən xəbərsiz, bəlkə, od düşən,
Sevən ürəyinin başıyam, gözəl.

Bu eşqi boynuma dola ip kimi,
Göstər bu dünyaya bir klip kimi,
Sındırıb ruhumu yandır çöp kimi,
İsit əllərini üşüyən, gözəl.

Bir yol göz götürüb belə baxmadın,
Elə yandırmadın, elə yaxmadın.
Öldürdün, dərdimə şərik çıxmadın,
Hamının dərdini daşıyan, gözəl.

Hər nadan əlinə vermə sən məni,
Naşı bazarına sürmə sən məni,
Ağaran saçlara hörmə sən məni,
Dərd alıb, qəm satıb yaşıyan, gözəl.

Ömrünün ən gözəl iliyəm, nəyəm,
Ya tər bənövşəsi, gülüyəm, nəyəm?
Dağların dəlisov seliyəm, nəyəm,
Bəlkə, mamır tutan daşıyam, gözəl?

Elli, naxış tutmur xam xəyallarım,
Nə arım, pətəyim, nə də ballarım.
Bu dünya işıqdı, günəş yollarım,
Günəşi yoluma döşüyən, gözəl.

## SAL MƏNİ YADINA

Ömrümün sevdalı illəri göydə,
Ən gözəl çiçəyi, gülləri göydə.
Haçandır ruhumun əlləri göydə,
Sal məni yadına dualarında...

Bu göy dəli sevda, yer dəli sevda,
Təpədən-dırnağa sirr dəli sevda.
Sıxsa ürəyini bir dəli sevda,
Sal məni yadına dualarında...

Haçansa yuxuna gələ bilməsəm,
Gözünün yaşını silə bilməsəm.
Bu eşqi mənimlə bölə bilməsən,
Sal məni yadına dualarında...

Vurub ürəyimə yara gözlərin,
Ruhumu çəkibdi dara gözlərin.
Məni mənnən alıb qara gözlərin,
Sal məni yadına dualarında...

Yoxluğun sən adlı küçəsi olsam,
Ömrünün qaranlıq gecəsi olsam.
Elliyəm, dünyadan köçəsi olsam,
Sal məni yadına dualarında...
Sal məni yadına dualarında...

## SEVDİM

Sevdim çiçəyini, qönçə gülünü,
Dünyanın varını, yoxunu sevdim.
Ləkə götürməyən bəyaz qar kimi,
Təmiz ürəyini, ruhunu sevdim.

Şax deyə bilmədim sözümü, neyçin?
Öyrənə bilmədim dözümü, neyçin?
Sevdirə bilmədim özümü, neyçin?
Özüm də bilmədən çoxunu sevdim.

Çeşməli suyumdu, dənizlərimdi,
Dövlətim, sərvətim təmizlərimdi.
Anamdı, bacımdı əzizlərimdi,
Doğmanı, uzağı, yaxını sevdim.

Kömür bir yuxuymuş, dəmir bir yuxu,
Min il bir yuxuymuş, çimir bir yuxu.
Ölüm bir yuxuymuş, ömür bir yuxu,
Ölüm röyaları, yuxunu sevdim.

Vətən ruhumuzdu, qaşı bir gözəl,
Torpağı bir gözəl, daşı bir gözəl.
Çıxdı qarşımıza naşı bir gözəl,
Ay Elli, boyunu, buxunu sevdim.

## AXTARIR

Çəkilib yuxum ərşə,
Xoruz yenə ban verir.
Ölür bir-bir ümidlər,
Xəyallarım can verir.
Zaman donub elə bil,
Yerini bir an verir.
Cavabsız sualları,
Ağıl çox asan verir...
Gecələrin sultanı,
O ay batana kimi.

Çoxları tülkü imiş,
Quyruğunda şələ var.
Xəyalında dolaşan,
Neçə-neçə tələ var.
Taleyimiz yük altda,
Çiynimizdə şələ var.
Yenə batıb günəşim,
Çıxmasına hələ var.
Mənimki mənə dəyər,
Əlim çatana kimi.

Daşlaşan ürəklərin,
Daş qapısı bağlanıb.
Can quşumuz qəfəsdə,
Quş qapısı bağlanıb.
Demə, içi boş imiş,

Boş qapısı bağlanıb.
Taleyimin, bəxtimin,
Baş qapısı bağlayıb;
Dünyamızın sahibi,
Tanrı yatana kimi.
İtirmişəm dözümü,
Dözüm məni axtarır.
Odum külə dönübdü,
Közüm məni axtarır.
Salıb-itirdiklərim,
Sözüm məni axtarır.
Düşmüşəm öz gözümnən,
Gözüm məni axtarır.
O, mənim içimdəki
Məni tapana kimi.



## GÖZƏL

Bir günahın üç sahibi var, gülüm,
Biri mənəm, biri Tanrı, bir gözəl.
İtirmişəm ürəyimi bu yerdə,
Min il gəzə, tapa bilməz hər gözəl.

Nə səpmişdim, nələr bitir, bilinmir,
Nə qazandım, nələr itir, bilinmir.
Xəyalından keçən nədir, bilinmir,
Gözlərində işıq saçan sirr gözəl.

Hər kəlməsi dönə-dönə hallanır,
Bala dönür, şirinləşir, ballanır.
Yanaqları lalə kimi allanır,
Qönçə kimi dodaqları tər, gözəl.

Elli, min yol azı qurban kəsmişəm,
Gəlişinə quzu qurban kəsmişəm.
Ayağına sözü qurban kəsmişəm,
Dünya gözəl, səma gözəl, yer gözəl.



## BİZLƏRİ

Günəş kimi doğuşuna vuruldum,
Gözlərinin yağışına vuruldum.
Bir gözəlin baxışına vuruldum,
Dindirəcək zaman-zaman bizləri.

Bir quruca ad qalacaq, bəlkə də,
Doğulmamış yad olacaq, bəlkə də.
Bu sevgimiz od olacaq, bəlkə də,
Yandıracaq zaman-zaman bizləri.

Qaxınc olub başımıza yağacaq,
Arxamızca boylanacaq, baxacaq.
Nə zamansa qarşımıza çıxacaq,
Sındıracaq zaman-zaman bizləri...

Yollar ayrı, yollar birmi, bilmirəm,
Möcüzəmi, yoxsa sirmi, bilmirəm.
Üstümüzə yel əsirmi, bilmirəm,
Söndürəcək zaman-zaman bizləri.

Elli, demə, hər şey gəldi-gedərdi,
Taleyinə bu, yazılan qədərdi.
Zirvə var ki, sonu yoxdu, hədərdi,
Endirəcək zaman-zaman bizləri.

## MƏNƏM

Hər şey yerindədi bu dünyamızda,
Yerində olmayan elə tək mənəm.
Göydənmi düşmüşəm, yerdən çıxmışam,
Bəlkə düşünürsən, göbələk mənəm.

Qara saçlarıma düşüb indi dən,
Yolumuz ayrılıb elə indidən.
Haçansa ruhunu sıxan, incidən,
Sinənin altında o ürək mənəm.

Ruhum qanadlana, uça göylərə,
Tanrı sirrimizi aça göylərə.
Əllərin uzana uca göylərə,
O göylər sənindi, o ətək mənəm.

Bəlkə də bir qucaq sünbül bəsləsən,
Lap qızıl qəfəsdə bülbül bəsləsən,
Ömür bağçasında bir gül bəsləsən,
O cənnət sənindi, o çiçək mənəm.

Heyrətdən qayalar lal düşə, Elli,
Lalə yanaqlara xal düşə, Elli,
Güllərdən ruhuma bal düşə, Elli,
O güllər sənindi, o pətək mənəm.

## XƏZƏRƏ

Anam Xəzər, görüşünə gəlmişəm,
Əlini ver, qalx ayağa, dur görüm.
Qucağına alıb layla çal mənə,
Vətən adlı səma görüm, yer görüm.

Məlul-məlul elə baxma üzümə,
Dəyişmərəm dənizlərin üzünə,
Zaman-zaman baş qoymuşam dizinə,
Qalx ayağa, qabağımda şir görüm.

Ulduz-ulduz başım üstə səpələr,
Yalmanına şahə qalxa ləpələr.
Gözdən itə sahildəki təpələr,
Gözlərimlə bir möcüzə, sirr görüm.

Başın üstə çətirin göy, şalın göy,
Bir igidsən, göy atının yalı göy.
Qılıncın göy, qanadın göy, qolun göy,
Ayağa dur, Dədəm Qorqud, ər görüm.

Qız qalası bir ər oğlu ərdimi,
Hər tərəfdən zəncirlənən nərdimi?
Elli desin axı kimə dərdini?
Günəş doğsun bəxtimizə, bir görüm.

## TƏZƏ AY ÇIXANDA

Təzə ay çıxanda köhnə doğranar,
Doğra ulduz-ulduz, doğra sən məni.
İtim ilim-ilim bu yer üzündən,
Məni məndən alıb, oğra sən məni.

İtirək səmtini əsən yelin də,
İşıq gələnin də, it hürənin də,
Qoyub günahını çəkək birbəbir,
Dərdi çəkənin də, dərd verənin də.

Qırıla içimdə karvan yolları,
Ağlımın küçəsi qapana bir gün.
İtirəm ayların, günün sayını,
Muştuluq paylayam tapana bir gün.

Çıxaram içimnən adilikləri,
Özümnən özümə yol tapa biləm.
Dilimə bir azca şirinlik qatam,
Sözümün ruhuna bal qata biləm.

Çıxa qarşımıza Ağ atlı oğlan,
Zümrüd quşlarının sorağı gələ.
Ruhumuz bədənnən baş alıb gedə,
Özgə planetdən qonağı gələ.

Oxuyam çoxunun içini hərdən,
Biləm ürəyinnən keçənlər nədir?
Kimdir tamahına qurban gedənlər,
Ölüm şərbətini içənlər nədir?

Namərd körpüsündən keçmədim, atam,
Yalançı sevgilər ruhuma yaddır.
Tapmışam çox şeyi yuxularımda,
At özü yuxuda elə muraddı.

Təzə ay çıxanda köhnə doğranar,
Doğra ulduz-ulduz, doğra sən.
İtim ilim-ilim bu yer üzündən,
Məni məndən alıb oğra sən məni.



## KEÇİR

Hər ziyanın bir xeyiri, şəri var,
Yol yola borcludu, yol yoldan keçir.
Min ildi Araz da, o dəli Kür də,
Tökülür Xəzərə, bir qoldan keçir.

Dedim "yaşayıram min il",-az dedim,
Dünyam eşitmədi necə söz dedim.
Dağlar dilə gəldi, "Hələ döz",-dedim,
Örkən doğanaqdan, güc qoldan keçir.

Bulanıq çaylar da durulur, atam,
Könül gözəlliyə vurulur, atam.
Kiminin taleyi qurulur, atam,
Kiminin taleyi lap "nol"dan keçir.

Qalmışam payızla qış arasında,
Ay Elli, ömürlə yaş arasında.
Dayanıb göz ilə qaş arasında,
Ölüm sağdan vurur, gah soldan keçir.

## NEYNİM

Bir tufan oynadı ruhumda yenə,
İçimdə toxundu daş-daşa, neynim?
Uçulub dünyamız, altında qalmışam,
Qalmışam özümlə baş-başa, neynim?

Gözlərim saralan gülümdə qaldı,
Sözlərim yapışıb dilimdə qaldı.
Tanrının ətəyi əlimdə qaldı,
Tutub yaxamızdan qarğaşa, neynim?

Bu dünya sındırır, bükür mərdləri,
Sürüyür ardınca, çəkir mərdləri.
Məni mənnən alan fağır dərdləri,
Axı necə deyim sirdaşa, neynim?

Ay Elli, sözümün yuxası yoxdu,
Yatan bəxtimizin çuxası yoxdu.
Ölüm mənnən qaçır, yaxası yoxdu,
Gedirəm üstünə birbaşa, neynim?

## MƏCNUNUN ŞƏLƏSİDİ

Yüz fikir bir borcu ödəməz, gülüm,
Sən elə fikirləş mən belə, neynim?
Döyünür bir yerdə ürəklərimiz,
Tuta bilməsək də, əl-ələ, neynim?

Bezmişəm taleyin kötəklərinnən,
Bir saman çöpünün yedəklərinnən.
Ha tutdum Tanrının ətəklərinnən,
Mənnən üz çevirdin sən belə, neynim?

Nə qədər yorubdu yuxular məni,
Uçurub yuvamnan yağılar məni.
Sındırıb "bəlkələr", "axılar" məni,
Tökülsün kallarım, silkələ, neynim?

Günlər həsrət çəkər, il çəkə bilməz,
Düşsəm dəli Kürə lil çəkə bilməz.
Ay Elli, bu dərdi fil çəkə bilməz,
Məcnun şələsidi bu şələ, neynim?

## YOXDU

Kimsə məni ölçə bilməz,
Ölçüm yoxdu, biçim yoxdu.
Oynatsam da, bu dünyanı,
Qarışqacan gücüm yoxdu.

Zaman mənim vaxt üzüyüm,
Sevda tacım, təxt üzüyüm.
Şuşa itmiş bəxt üzüyüm,
Nə Kəlbəcər, Laçın yoxdu.

Yaşamadım yurd içində,
Seçilmədim mərd içində.
Şırım açıb dərd içimdə,
Sel aparıb, içim yoxdu.

Bu, "Quran"dı, ayə sığmaz,
Ata, ana, dayə sığmaz.
Elli, yerə göyə sığmaz,
Ha desəm də, suçum yoxdu.

## VERƏ VERMƏYƏ

Qapım açıq qalıb, bağlayanım yox,
Ruhum bu qapıdan girə, girməyə.
Bəsirət gözüylə gəldim dünyaya,
Tutulub gözlərim, görə, görməyə...

Aparır özüylə xəzəllər məni,
Görənlər tanımaz əzəllər məni.
Yuyub göz yaşıyla gözəllər məni,
Bir qaya üstünə sərə, sərməyə...

Susuz səhralarda sünbül bəslədim,
Bir qızıl qəfəsdə bülbül bəslədim.
Ömrün bağçasında bir gül bəslədim,
Titrəyən əllərim dərə, dərməyə...

Baxmadım ağlımın dediklərinə,
Ha dözdüm taleyin kötəklərinə.
Əl açdım Tanrının ətəklərinə,
Ay Elli, ya qismət, verə, verməyə....

## VAR

Dikilib gözlərim haqq qapısına,
Haçandır gələnim, nə gedənim var.
Can quşum salınıb qızıl qəfəsə,
Nə dən verənim var, nə də dənim var.

Ölüm ucuzlaşıb, yaşamaq baha,
Qorxum yox bir bəyaz ölümnən daha.
Əllərim üzülüb elimnən daha,
Nə elim, nə obam, nə Vətənim var.

Quru bəy kimiyəm, xaliq kimiyəm,
Vurulan, bölünən, qalıq kimiyəm.
Dəryadan üzülən balıq kimiyəm,
Nə sevinc, nə kədər, nə də qəmim var.

Ay Elli, dünyadan doya bilmirəm,
Hayana gedirəm, guya, bilmirəm.
Ölsəm, kim çəkəcək suya, bilmirəm,
Neyləyim, nə ruhum, nə bədənim var.

## AY ALLAH

“Yallı” nədi, “Cəngi” nədi, bilmədim,
Niyə tufan səngimədi, bilmədim?
Dadı nədi, rəngi nədi, bilmədim,
Haçan xoşbəxt olacağam, ay Allah?..

Ömür keçdi fırtınalar içində,
Ha fırlatdın fırfıralar içində,
Mən olmadım qurtulanlar içində,
Haçan xoşbəxt olacağam, ay Allah?..

Qoca türkün oğuzunnan keçmişəm,
Neçə qurdun ağızınnan keçmişəm,
Dəyirmanın boğazınnan keçmişəm,
Haçan xoşbəxt olacağam, ay Allah?..

Göydən düşdü, qamarladım at kimi,
Bir taleyi tumarladım at kimi.
Ürəyimi çidarladım at kimi,
Haçan xoşbəxt olacağam, ay Allah?..

Canlı yoxmu mən ünvanda, bölgədə,
Kal töküldüm, bir də məni silkələ.
İnsan kimi yaşamadım, bəlkə də,
Haçan xoşbəxt olacağam, ay Allah?..

Meşə qalın, dağlar uca, çən gedir,
Sevənlərim, sevdiklərim gen gedir.
Zaman keçir, ömür gedir, gün gedir,
Haçan xoşbəxt olacağam, ay Allah?..

Eniş, yoxuş, sərt verənim səniydin,
Məni dürüst, mərd verənim səniydin.
Dərd üstünnən dərd verənim səniydin,
Haçan xoşbəxt olacağam, ay Allah?..

Ağac olub qurumağa nə var ki,
Yamanları sırımağa nə var ki?
Bir Ellini qorumağa nə var ki,
Haçan xoşbəxt olacağam, ay Allah?..



## HƏYAT ÇOX ŞEYLƏRİ ÖYRƏTDİ MƏNƏ

Həyat çox şeyləri öyrətdi mənə,
Zəri qoşalayıb cütləməyi də.
Müqəddəs bildiyim, doğma bildiyim,
Çox şeyin üstünnən xətləməyi də.

Çəkmişəm üstünnən qaradan boya,
Yaşamaq haqqını itirənlərin.
Əsiri olmuşam, qulu olmuşam,
Ömrünü içimdə bitirənlərin.

Yalannan gülməyi bacarmıramsa,
Deyin, necə gülüm, ağlayım necə?
Düşübsə gözümdən bir dəli sevda,
Axı ürəyimdə saxlayım necı?

Ümidlər əriyir ulduzlar kimi,
Açılmaz sabahı kor gecələrin.
Onsuz da səhv salıb qarışdırmışam,
İçimdə dolaşan dar küçələri.

Həyat çox şeyləri öyrətdi mənə,
Yaşıya bilmirəm, yaşamaq olmur.
Şələsi özünnən ağır dünyanın,
Neyləyim, yükünü daşımaq olmur.

## ATAMOĞLU

İki eşşəyin arpasını,
Böləmmirsən, atamoğlu.
Vicdanının harayına,
Gələmmirsən, atamoğlu.

Təmiz adı daşıyıb öl,
Nəfsini qaşıyıb öl.
Kişi kimi yaşayıb öl,
Öləmmirsən, atamoğlu.

Fırladırsan öz başını,
Atdığımız söz daşını.
Timsah kimi göz yaşını,
Siləmmirsən, atamoğlu.

Yalan imiş təəssübün,
Riya imiş təəssüfün,
İlan kimi təbəssümün,
Güləmmirsən, atamoğlu.

Elli deyir, talançısan,
Fırıldaqsan, yalançısan.
Qapıb alan dilənçisən,
Diləmmirsən, atamoğlu.

## BATIRMA GÜNAHA

Düzləri çəkməyə yedəyim dəyər,
Süzülən ballara pətəyim dəyər.
Namaz qılmağa da ətəyim dəyər,
Günaha batırma sən məni, dünyam.

Min yol sınaqlardan keçib gəlmişəm,
Sevən ürəklərə köçüb gəlmişəm.
Min ildi, cənnətdən uçub gəlmişəm,
Günaha batırma sən məni, dünyam.

Əlim əllər görüb, üzüm üz görüb,
Ayağım yer görüb, dilim söz görüb.
Evim halal çörək, ocaq, köz görüb,
Günaha batırma sən məni, dünyam.

Elli,, abad gördüm viranlıqdarı,
Nura qərq eylədim qaranlıqları.
Asmışam içimdə haramlıqları,
Günaha batırma sən məni, dünyam.

## SƏN MƏNİ, LEYLAM

De, hansı zalımın zor oğlurladın,
Saldın öz toruna, tor oğurladın?
Kərəmin külünnən qor oğurladın,
Niyə yandırırsan sən məni, Leylam?

Dədəm Qorqud gəlib, ozan gəlibdi,
Bəlkə, taleləri yazan gəlibdi?
Əyilib-düzəlmək asan gəlibdi,
Niyə yandırırsan sən məni, Leylam?

Xəyala dönmüsən, xala dönmüsən,
Bəlkə, şəkər idin, bala dönmüsən?
Gözəllik önündə lala dönmüşəm,
Niyə yandırırsan sən məni, Leylam?

Elli, bir sevdanın yanında idim,
Qızıl üzəngidə, atında idim.
Göylərin yeddinci qatında idim,
Niyə yandırırsan sən məni, Leylam?

## MƏNİMÇÜN

Ağzı xeyirsözlüm, xeyirxəbərlim,
Hər sözün şəkərdi, baldı mənimçün.
Gəl elə danışma, gəl elə demə,
Sözün ürəyimdə xaldı mənimçün.

Göylərin günəşi sönüb elə bil,
Tale üz çevirib, dönüb elə bil.
Bu dünya heyrətdən donub elə bil,
Bəlkə, yaranışdan laldı mənimçün.

İçimdə təklik var, çölümdə təklik,
Çiçəyim, bənövşəm, gülümdə təklik.
Kimsəsiz cığırlar, xınalı kəklik,
Boyalana-boyalana qaldı mənimçün.

Bu sevda göylərə qaldırıb məni,
Ağladıb, yüz dəfə güldürüb məni.
Min yol sevə-sevə öldürüb məni,
Sonra saçlarını yoldu mənimçün.

Qızıl balıq gəzdim, təxt qazanmadım,
Ay Elli, bar verən bəxt qazanmadım,
Rahat yaçamağa vaxt qazanmadım,
Bu dünya “Kərəmi” çaldı mənimçün!

## OYNUYURMUŞ

Mən hardan biləydim dünya oyunmuş,
Bir gözəl əlində söz oynuyurmuş.
Yandırıb-yaxmaqda qəsdi yoxuymuş,
Bəlkə də, ruhunda köz oynuyurmuş.

Hökm edir dünyaya fələklər kimi,
Yanağı allanıb çiçəklər kimi.
Göylərdən gəlmişdi mələklər kimi,
Sən demə, adicə qız oynuyurmuş.

Görmədim bu boyda, biçimdə dünya,
Bizləri aparır köçündə dünya.
Nə qədər gözəlmiş içimdə dünya,
Bahar qol götürüb, yaz oynuyurmuş.

Ay Elli, zirvədə qal, – deyə bilmir,
Küsdürüb könlümü al, – deyə bilmir.
Bir “Yanıq Kərəmi” çal, – deyə bilmir,
Mizrab nalə çəkib, saz oynuyurmuş.



# MÜNDƏRİCAT


MƏN ŞAİR DEYİLƏM ........................................ 3
SÖZÜ BÖYÜTMƏYİM VAR ........................................ 4
MƏNİM AĞ GÖYƏRÇİNİM ........................................ 5
LEYLAM ........................................ 7
MƏNİ YESENİN YERİNƏ BASMA ........................................ 8
AĞLAMA ........................................ 10
BƏS NECƏ YATIRSAN ........................................ 12
DÖYÜR ........................................ 14
QİBTƏ ........................................ 15
ÇIXIR ........................................ 16
“BƏH-BƏH”, DEYİRSƏN ........................................ 17
BƏLKƏ DƏ ........................................ 18
A QAR ÇİÇƏYİM ........................................ 19
QOVA-QOVA NAMƏRD ETDİM DƏRDİMİ ........................................ 20
QƏM ........................................ 21
NİYƏ DOĞDUN ........................................ 22
SƏN ALLAH, YALANNAN MƏNƏ: “CAN”,-DEMƏ ........................................ 24
ELLİ HƏLƏ UŞAQ AĞLIN YAŞIYIR ........................................ 25
QURUT GÖZ YAŞINI ........................................ 26
QAR YAĞIR ........................................ 28
ON BEŞ İL ........................................ 30
BAX ........................................ 31
DƏLİ ........................................ 32

QORXURAM ........................................................................ 33
QUM ADAM ........................................................................ 34
SƏNİ TAPMAĞIM NƏ, İTİRMƏYİM NƏ ........................................ 35
İKİ ÖMÜR ........................................................................ 36
BİR DƏ ........................................................................ 38
YAMAN DARIXMIŞAM ........................................................................ 39
BİLMİRƏM ........................................................................ 40
ZÜMRÜD QUŞUMSAN ........................................................................ 41
A DİLBƏR ........................................................................ 42
SƏN ALLAH ........................................................................ 43
DƏYMƏ ........................................................................ 44
MÖHTACAM ........................................................................ 45
ÖZÜNLƏ ........................................................................ 46
QOYMA ........................................................................ 47
YARIDA QALIB ........................................................................ 48
YAD OLMUSAN ........................................................................ 49
BÜLBÜL ........................................................................ 50
HƏLƏ Kİ ........................................................................ 51
EYLƏMİŞƏM ........................................................................ 52
APARDI ........................................................................ 53
ÖLDÜR NİFRƏTİMİ ........................................................................ 54
OXUMA ŞEİRİMİ ........................................................................ 55
GƏLMİR ........................................................................ 56
DAŞIYIRAM ........................................................................ 57

ALIBDI ƏLİMNƏN YURDUMU DÜNYA....................58
GÖZLƏMİŞ....................59
NƏ GÜNAH....................60
NECƏ QAYITMISAN....................61
GÜZGÜYƏ BAX Kİ....................62
BU ÇANTA KƏBƏDƏN GƏLİB....................63
ÖLDÜRƏCƏM İÇİMDƏKİ KƏDƏRİ....................64
BƏLKƏ DƏ....................65
NƏSƏN....................66
GƏL....................67
NEYLƏSİN....................68
BİLİNMİR....................69
SÖZ GÖZƏL....................70
ELOĞLU....................71
KEÇİR....................72
QALMIŞAM....................73
BİR GÖZƏL AĞLAYIR....................74
NEYNİM....................75
MƏNİ....................76
VAR....................77
MÜƏLLİM....................78
İNCİMƏZMİ....................80
GÖRƏSƏN....................81
YÖN VƏTƏNƏ, ÜZ TANRIYA, HAQQA BAX....................82

XAL EYLƏ MƏNİ ....................................................................83
AY MƏNƏ AĞLAMAQ ÖYRƏDƏN OĞLAN ..........................................84
ÇƏKƏN ....................................................................................85
İŞİM YOX ................................................................................86
HAQQIMSAN MƏNİM ....................................................................87
DAHA NAĞILLARA İNANMIRAM ......................................................88
DOLANDIRIR...............................................................................89
BƏS NİYƏ GƏLMƏDİN, A QARAGÖZLÜM..........................................90
DEYİL Kİ ....................................................................................91
GÖRƏSİYƏM ..............................................................................92
GÜNAHLARIM CƏZAMDI ...............................................................93
SƏNİNÇÜN ................................................................................94
YANDIM ....................................................................................95
QALMIR.....................................................................................96
İNDİ .........................................................................................97
MƏN ELƏ BİLİRDİM.......................................................................98
QORXURAM ...............................................................................99
DÜNYAM....................................................................................100
GÜNAH.......................................................................................101
QAYIT ........................................................................................102
DÜŞÜB .......................................................................................103
GÖYLƏR MƏNİM YERİM DEYİL .......................................................104
DOYUNCA ..................................................................................105
BAXIŞLARINDA ............................................................................106

GET....................................................................................107
GÖRMÜŞƏM.........................................................................108
XOŞ GƏLDİN........................................................................109
GÖRÜNMÜR .........................................................................110
BAYRAĞIM ...........................................................................111
BİR GÜN ..............................................................................112
İÇİNDƏ ................................................................................113
SAMAN ÇÖPÜ .......................................................................114
GÖZLƏRİN............................................................................115
YAŞIYA BİLMİRƏM ...............................................................116
ATAM BALASI......................................................................117
GƏRƏKDİ ƏLƏYİB SEÇƏLƏR MƏNİ.......................................118
APAR ÖZÜNLƏ .....................................................................119
GƏZİR..................................................................................121
HAYIF, HAYIF.......................................................................122
QALMAYIB...........................................................................123
QAÇIRAM ATAM BALASI.......................................................124
ÜZÜ GÜNBATANA GEDİR BU QATAR....................................125
ZİRVƏLƏRDƏ ŞƏHİD OLUB BU SEVDA .................................127
AY ALLAH, ALLAH................................................................128
PAYIMSAN MƏNİM...............................................................129
ÖMÜR QARDAŞ....................................................................130
DE MƏNNƏN AŞAĞI KİM VAR..............................................131
QARDAŞIM..........................................................................132

GİLEY ........................................................................................133
GÜLÜM ......................................................................................134
DƏYMƏZ ....................................................................................135
YOXMUŞ.....................................................................................136
NƏ BAXIRSAN.............................................................................137
DEMƏ.........................................................................................138
DÜNYAM .....................................................................................139
İÇİMDƏ BİR DƏLİ QAR HAVASI VAR ...........................................140
MƏNİM .......................................................................................141
DOĞRU ÇİÇƏKLƏYƏ ....................................................................142
DÜNYAM .....................................................................................143
ÜTDÜLƏR ....................................................................................144
ŞAHA NEYNİM.............................................................................145
ELƏ BİLDİM SAVALANIM..............................................................146
AĞLAYIR .....................................................................................147
BİLMƏDİM ..................................................................................148
DEMƏ, ARAZ BOYDA DƏRDİM VAR MƏNİM .................................149
AY ALLAH ...................................................................................150
ЙАХЫН ЭЯЛ, ГЯЛЯМИМ...............................................................151
SARI QƏM ...................................................................................152
NİYƏ GƏLMƏDİN .........................................................................153
BİLMİRƏM...................................................................................154
TANRI, MƏNƏ SƏBİR VER ............................................................155
GÖZLƏRİNDƏ KƏDƏRƏMMİ..........................................................156

RƏQƏMLƏRİN DİLİ....................................................................157
BİLMƏDİM ..........................................................................................159
GƏL ELƏ DÜŞÜNMƏ, NAŞIYAM, GÖZƏL........................................160
SAL MƏNİ YADINA ..............................................................................161
SEVDİM ................................................................................................162
AXTARIR ...............................................................................................163
GÖZƏL...................................................................................................165
BİZLƏRİ.................................................................................................166
MƏNƏM ...............................................................................................167
XƏZƏRƏ ...............................................................................................168
TƏZƏ AY ÇIXANDA ..............................................................................169
KEÇİR.....................................................................................................171
NEYNİM.................................................................................................172
MƏCNUNUN ŞƏLƏSİDİ ......................................................................173
YOXDU ..................................................................................................174
VERƏ VERMƏYƏ ..................................................................................175
VAR .......................................................................................................176
AY ALLAH .............................................................................................177
HƏYAT ÇOX ŞEYLƏRİ ÖYRƏTDİ MƏNƏ ............................................179
ATAMOĞLU...........................................................................................180
BATIRMA GÜNAHA .............................................................................181
SƏN MƏNİ, LEYLAM.............................................................................182
MƏNİMÇÜN.........................................................................................183
OYNUYURMUŞ.....................................................................................184

Nərgiz NƏŞRİYYATI

**Baş direktor: Hidayət Musabəyli**

**Korrektor:** *Yasəmən İsmayılova*
**Texniki redaktor:** *Safurə Dadaşova*
**Mətn yığımı-Dizayn:** *Ülviyyə Quliyeva*

Çapa imzalanmışdır: 08.08.2015
Kağız formatı: 60x84 1/16
Həcmi: 12 çap vərəqi
Tiraj: 300 nüsxə; Sifariş: 1041

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan:8-ci km qəsəbəsi, R.Rüstəmov küç.36
Nəşriyyatla əlaqə telefonları:
012-323-69-53
050-738-37-22

nesriyyat.nergiz@mail.ru